QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 240 (5960) **26 dekabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır"

*Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*




Səh 2

5

"Ermənistan rəhbərliyi uydurma və heç də inandırıcı olmayan açıqlamalar verməklə məşğuldur"



13

Ermənistanda jurnalistlər hücuma məruz qalıb



8

Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikintisi uğurla davam edir



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

26 dekabr 2019-cu il

# İlham Əliyev: “Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır”

*Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*




***Dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib. Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.***

Dövlət başçısı diqqətə çatdırıb. Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Dövlət başçısı qeyd edib ki, bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər:

“Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır, biz bunu görürük, izləyirik. Biz buna görə görkəmli idmançılarımıza minnətdar olmalıyıq. Ümumiyyətlə, hesab edirəm ki, idman sahəsində görülən işlər gəncləri də həvəsləndirir. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır. Bu baxımdan bu il də əlamətdar il olmuşdur. Bizim idmançılarımız beynəlxalq idman yarışlarında 775 medal qazanmışlar, onlardan 271-i qızıl medaldır. Bu, onu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın dövlət himnini dəfələrlə səsləndiriblər, bizim bayrağımızı yüksəklərə qaldırıblar.

İdman nailiyyətləri arasında şahmatçıların uğurlarını xüsusilə qeyd etmək istərdim. Çünki bu, onu göstərir ki, bizim gənclərimiz nəinki fiziki cəhətdən güclüdür, eyni zamanda, onların intellektual potensialı da çox yüksəkdir. Bizim görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi olmuşdur. Bu, tarixi hadisədir. On altı yaşadək yeniyetmələrdən ibarət şahmat komandamız Dünya Şahmat Olimpiadasının qalibi olmuşdur. Bu da onu təsdiqləyir ki, şahmata göstərilən diqqət, son illərdə rayonlarda şahmat məktəblərinin açılması öz nəticəsini verməkdədir. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində şahmat məktəblərinin açılışı da ənənəvi olaraq proqrama salınır. Demək olar ki, mən ölkəmizdə fəaliyyət göstərən əksər şahmat məktəblərinin açılışında iştirak etmişəm. Əfsuslar olsun ki, 1980-ci illərin sonlarında və 1990-cı illərin əvvəllərində bir çox şahmat məktəblərimizin təyinatı dəyişdirilmiş, o binalar özəlləşdirilmiş, orada ticarət obyektləri açılmışdır. Əlbəttə ki, bu, ovaxtkı rəhbərlik tərəfindən bizim intellektual potensialımıza vurulmuş böyük zərbə idi.



Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra şahmat məktəblərinin yenidən açılması prosesi başlamışdır və son illərdə bu proses geniş vüsət almışdır. Mənim göstərişimlə rayonlarda yaradılmış gözəl şahmat məktəbləri fəaliyyət göstərir və beləliklə, gənc şahmatçılar yetişir.

Əlbəttə, şahmat çox məşhur, populyar idman növüdür, o idman növüdür ki, insanların, uşaqların intellektual potensialını gücləndirir. Məhz mənəvi dəyərlərimizə bağlı və böyük intellektual potensiala malik olan gənclər bizim gələcəyimizi, müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcəklər. Ona görə gənclər fiziki cəhətdən güclü olmalıdırlar. Onların intellektual potensialı yüksək səviyyədə olmalıdır. Onlar milli dəyərlərə, Vətənə bağlı olmalıdırlar. İdman vətənpərvərlik hisslərini böyük dərəcədə artırır. Hər bir idman qələbəsi, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. Ona görə idmanın hər bir ölkənin həyatında çox önəmli rolu var. Məhz buna görə son illər ərzində idmana çox böyük diqqət göstərilir. Mən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti kimi 1997-ci ildə bu vəzifəyə ilk dəfə seçiləndən sonra Azərbaycanda idmanın inkişafı, idmanda kütləviliyin təmin edilməsi istiqamətində addımlar atmışam və bu addımlar bu gün özünü göstərir.

Aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır. Bizim idman sahəsində ən böyük nailiyyətimiz keçən Yay Olimpiya Oyunlarında qazanılmış qələbədir. Medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülmüşdür. Bu, tarixi qələbədir və bu, təsadüfi qələbə deyil. Çünki ondan bir il əvvəl - 2015-ci ildə Bakıda keçirilmiş Avropa Oyunlarında Azərbaycan komanda hesabında ikinci yerə qalxmışdır. Ona görə idman sahəsində qazandığımız uğurlar təsadüfi xarakter daşımır. Konseptual şəkildə ardıcıl işlər görülür, veteran idmançılara diqqət və qayğı göstərilir, onlar dövlət tərəfindən mükafatlandırılırlar. İdman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançılar üçün də bütün şərait yaradılıb. Onların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı və idmanla məşğul olmaları üçün yaxşı şərait yaradılıb. Hazırda bizim ancaq bölgələrdə 45 Olimpiya İdman Mərkəzimiz var. Bu il bir mərkəz Beyləqan şəhərində mənim iştirakımla açılıbdır. İki Olimpiya İdman Mərkəzi açılışa hazırdır - Yardımlı və Tərtər rayonlarında. İki Olimpiya Mərkəzinin tikintisi davam etdirilir - Goranboy və Neftçala şəhərlərində. Yevlax şəhərində Olimpiya Mərkəzinin layihələndirmə işləri başa çatıb və əminəm ki, yaxın zamanlarda onun inşası başlanacaq. Beləliklə, biz demək olar ki, hər bir rayonda müasir idman kompleksi istifadəyə verərək idmançılar üçün şərait yaratdıq. Bu, həm gənc idmançıların idman bölmələrində hazırlıq keçmələri, həm də şəhər və rayon sakinləri üçün gözəl imkandır.

Mən tövsiyə edərdim ki, hər bir vətəndaş idmanla məşğul olsun. Özü də həftədə, ayda bir dəfə yox, müntəzəm olaraq. Bunun çox böyük xeyri var və əgər belə olarsa, hər bir insan öz həyatında bunu görəcəkdir. Mən ümid edirəm ki, biz buna nail olacağıq. Çünki başqa sahələrdə mənim tövsiyələrim artıq həyatda öz əksini tapır. Bəlkə də indi siz yaxşı xatırlayırsınız ki, rayon mərkəzlərində və kəndlərdə yeni xəstəxanaların, tibb ocaqlarının açılışı zamanı mən dəfələrlə eyni məsələyə qayıdıb tövsiyə edirdim ki, hər bir vətəndaş ildə bir dəfə tibbi müayinədən keçsin və bilsin, onun sağlamlığı, səhhəti nə yerdədir. Əgər hər hansı bir xəstəliyin ilkin təzahürləri varsa dərhal müalicə alsın və sağalsın.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır”

*Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib*







Əvvəli-Səh-2

Bütün şəhərlərdə, rayonlarda müasir, özü də ən yüksək dünya standartlarına cavab verən tibb mərkəzlərimiz yaradılandan sonra artıq bu prosesə daha çox meyil göstərilir. Ondan sonra biz bunu mütəşəkkil qaydada icra etməyə başladıq. Artıq bir neçə ildir ki, böyük maarifləndirmə və təbliğat işləri apararaq vətəndaşların pulsuz müayinədən keçmələri üçün imkanlar yaratdıq. Bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz tibbi müayinədən keçibdir. Orada müayinədən keçən vətəndaşların əgər hər hansı bir xəstəliyi olarsa, dərhal müalicə edilir. Əgər rayon şəraitində buna imkan yoxdursa, Bakıya göndərilir və beləliklə, insanlar öz səhhətini qoruyurlar. Biz buna nail olmuşuq və deyə bilərəm ki, Azərbaycan bəlkə də dünyada dövlət tərəfindən bütün vətəndaşlara tibbi müayinədən keçmək şəraitinin yaradıldığı nadir ölkələrdən biridir. Əminəm ki, mənim hər bir insanın fiziki imkanlarına uyğun olaraq idmanla məşğul olması barədə tövsiyəm də həyatda öz əksini tapacaq. Onda hər bir insan görəcək ki, bunun nə qədər böyük faydası var.

Bizim idman şöhrətimizi yüksəklərə qaldıran görkəmli idmançılarımıza da tövsiyə edirəm ki, onlar da bu maarifləndirmə işlərində fəal iştirak etsinlər. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, idman cəmiyyətləri, klublar idmanın kütləviliyini təmin etsinlər. Bilirsiniz ki, çoxdandır mənim təşəbbüsümlə biz ictimai istirahət zonaları yaradırıq. Artıq parklar, bağlar şəhəri olan Bakı bu baxımdan dünyada qabaqcıl yerlərdədir. Baxın, son vaxtlar Bakı şəhərində nə qədər ictimai istirahət zonaları yaradılıb. Sovet vaxtından qalan bütün ənənəvi parklar ən yüksək səviyyədə yenidən quruldu. Vaxtilə dağılmış, guya fəaliyyət göstərən, əslində, ekologiyamıza ziyan vuran sənaye müəssisələrinin yerində bir çox yeni parklar salındı. Sonra mənim göstərişimlə bu ictimai parklarda açıq havada idman qurğuları quraşdırılmağa başlanmışdır. İndi “Abad həyət” proqramı icra edilir.




Artıq Bakı şəhərində onlarla həyət abadlaşdırılıb. Orada idman meydançaları, o cümlədən trenajorlar quraşdırılıb. İndi hər bir insanın açıq havada idmanla məşğul olması üçün imkanlar var. Uşaqlar, böyüklər orada futbol, başqa oyunlar oynayırlar, trenajorlarda məşq edirlər. Bu, kütləvi xarakter almalıdır. O halda millətimiz sağlam olacaq.

Ona görə görkəmli idmançılara müraciət edərək onları bu işə dəvət edirəm. Bizim mətbuat orqanları gərək bu sahədəki fəaliyyətini gücləndirsinlər. Düzdür, bizim bəzi televiziya kanallarında aerobika, başqa fiziki fəallıqla bağlı verilişlər var. Bu verilişlərdə vətəndaşlara göstərilir ki, idmanın hansı növünü, hansı hərəkətləri ev şəraitində edə bilər. Amma hesab edirəm ki, bu, kifayət deyil. İdman kütləvi xarakter almalıdır, ona görə yox ki, biz daha çox medallar qazanmaq əzmindəyik, - halbuki bu da vacibdir, - ona görə ki, bizim millətimiz sağlam olsun, xəstələnməsin. İdmanla məşğul olan insanlar, buradakı idmançılar bunu öz həyatlarında görürlər. Baxmayaraq ki, iş qrafikim çox gərgindir, mən idmanla müntəzəm, fasiləsiz məşğul oluram. Bəlkə Azərbaycanda məndən çox işləyən adam yoxdur, ancaq buna baxmayaraq, vaxt tapıb idmanla müntəzəm məşğul oluram və bunun xeyrini görürəm. Ona görə mənim tövsiyəm budur. Əminəm ki, yaxın gələcəkdə mənim bu tövsiyələrim əsasında konkret təkliflər olacaqdır, idman kütləviliyi ilə bağlı geniş proqram tutulacaqdır.”

Dövlət başçısı diqqətə çatdırıb ki, gələn il ölkəmizdə yenə də mötəbər idman yarışlarının keçirilməsi nəzərdə tutulur. Onların arasında bir nömrəli yarış futbol üzrə Avropa çempionatının dörd oyunudur, onlardan biri dörddəbir finaldır. Artıq tarixlər də bəllidir, hazırlıq işləri də aparılıb, xaricdən gələn çox böyük tamaşaçı auditoriyası olacaq:

“Əminəm ki, bu yarış da ən yüksək səviyyədə keçiriləcək və Azərbaycan öz imkanlarını, o cümlədən təşkilatçılıq qabiliyyətini bir daha göstərəcəkdir.

Ənənəvi olaraq Formula 1 yarışı keçiriləcəkdir. Futbol üzrə Avropa çempionatının oyunları ilə Formula 1 yarışı üst-üstə düşür. Ona görə təşkilati məsələlərlə məşğul olan bütün qurumların üzərinə əlavə məsuliyyət düşür. Gərək bütün bu işləri elə planlaşdıraq ki, bu iki önəmli tədbir bir-birinə maneçilik törətməsin. Ona görə indidən bütün işlər düzgün qurulmalıdır.

Formula 1 yarışına gəldikdə, deyə bilərəm ki, bu yarışın ölkəmiz üçün çox böyük faydası var. Birincisi, Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, Formula 1 yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyirsə, bu, bizə ziyan vurur, o, ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər, bu, bizə ziyan vurursa, onda yaxşı, bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. Formula 1 yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Birinci Formula 1-dən sonra Azərbaycana kütləvi turist axını başlamışdır. Mən bu tarixləri dəqiq xatırlayıram. Çünki hər ay, yaxud da ki, hər rüb mənə turistlərin gəlişi ilə bağlı məlumat verilib. Beləliklə, birinci yarış keçiriləndən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz. Nəhayət, bu il, artıq on bir ayda 11 faiz artmışdır. Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər etmişdir. Mən tapşırıq vermişəm, aidiyyəti qurumlar hesablayırlar ki, bu turistlər nə qədər pul xərcləyiblər. Əlbəttə ki, biz bunu həm ödəmə kartları vasitəsilə dəqiq biləcəyik, eyni zamanda, ehtimal olunan pul sərfiyyatını da, - bunun da hesablama metodologiyası var, - hər halda bu, milyardlarla manat səviyyəsindədir. Budur, turistlərin gəlişinin ölkə iqtisadiyyatına verdiyi töhfə.”

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2019-cu ildə



yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.

Dövlətimizin başçısı ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Alavərdi Culfayevə, Yavuz Eminbəyliyə və Ramiz Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədləri təqdim etdi.

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Paşa Əliyev, Tərlan Həsənov, Şahlar Mustafayev, Azər Həsənov, İqdam Ələkbərov, Tofiq Heydərov və Böyükağa Ağayev Əməkdar bədən tərbiyəsi və idman xadimi, idman səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Natiq Əliyev və Emiliya Hüseynovaya Əməkdar həkim, Rəşad Cavadova isə Əməkdar jurnalist fəxri adlarının vəsiqələri təqdim olundu.

Tədbirdə Pərviz Tağıyev, Ramiz Quliyev, Nazim Səmədov, Orxan Qəribov, Yalçın Qaralı, Şahin Mahmudov, Nadir Əzizov və Ramil Əhmədov Milli Olimpiya Komitəsi Prezidentinin fəxri fərmanları ilə təltif edildilər.

Prezident İlham Əliyev 2019-cu ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə - Salman Əlizadə, Bəhram Mürvətov, Qərib Əliyev, Rəşad Məmmədov, Ramiz Ramizzadə, Bəhruz Salehli, Səbinə Məmmədova, Elxan Süleymanov, Səid Quliyev, Əbülfəz Məmmədov, Rəşad Əbdürrəhmanov, Vladislav Qədirov, Anar Allahverdiyev, Xanım Balacayeva, Kərim Sərdarov, Emil Həsənov, Kamil Qafarov, Ceyhun Hüseynov, Asiman Qurbanlı, Cabbar Mustafayev, Faiq Quliyev, Şahbandlu Rəcəbzadə və Səməd Qurbanova yeni mənzillərin orderlərini təqdim etdi.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə xatirə hədiyyələri təqdim edərək dedi: Sizin fəaliyyətiniz və Birinci vitse-prezidentin fəaliyyəti respublikanın inkişafı ilə bağlıdır. Bundan qiymətli heç nə ola bilməz!

# "Dinlərarası dialoqun inkişafı yolunda Azərbaycan beynəlxalq müstəvidə böyük səylər göstərir"

*Prezident İlham Əliyev İsrailin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də İsrailin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Corc Dikin etimadnaməsini qəbul edib AZƏRTAC xəbər verir ki, Corc Dik etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Corc Dik ölkəmizdə səfir təyin olunmasından məmnunluğunu ifadə edərək Azərbaycanda mövcud olan multikultural və tolerant mühitin onda dərin təəssürat yaratdığını diqqətə çatdırdı.

Prezident İlham Əliyev dinlərarası dialoqun inkişafı yolunda Azərbaycanın beynəlxalq müstəvidə böyük səylər göstərdiyini və uğurlu addımlar atdığını bildirərək, bunun dünya birliyi tərəfindən yüksək qiymətləndirildiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda bütün dinlərin və millətlərin nümayəndələrinin dinc və mehriban şəraitdə yaşadığını məmnunluqla qeyd etdi. Görüşdə iqtisadi, ticarət, turizm, humanitar, kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Əlcəzair Azərbaycanla əməkdaşlığa böyük önəm verir

*Prezident İlham Əliyev Əlcəzairin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Əlcəzairin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhakın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Salima Abdelhak etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Əlcəzairin Azərbaycanda ilk qadın səfiri olduğunu deyən Salima Abdelhak Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasət sahəsində uğurlar əldə etdiyini bildirərək bu münasibətlə təbriklərini çatdırdı. O bildirdi ki, Bakının əsrarəngiz gözəlliyi buraya gələn turistləri valeh edir və buradakı çox böyük inkişaf prosesləri dərin təəssürat doğurur.

Səfir, eyni zamanda, Azərbaycanda mühüm beynəlxalq tədbirlərin də yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla qeyd etdi.

Salima Abdelhak qadın səfir olaraq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Azərbaycanın inkişafı naminə fəaliyyətindən fəxr hissi keçirdiyini vurğuladı. Görüşdə ölkələrimiz arasında iqtisadi, ticarət, turizm, elm-təhsil, tələbə mübadiləsi və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparıldı.



# Səbail rayonunda dahi mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə bağlı tədbir keçirilib





Dünən Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı və "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə Beynəlxalq Muğam Mərkəzində Azərbaycanın dahi mütəfəkkir şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilən "Əbədiyyət üfüqündə doğan günəş" adlı ədəbi-bədii tədbir keçirilib.

Yeni Azərbaycan Partiyası ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin "Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı" və 2019-cu il "Nəsimi İli" çərçivəsində keçirilən tədbiri giriş sözü ilə "Azərbaycan Qadınları Respublika Cəmiyyəti" İctimai Birliyinin Səbail rayon təşkilatının sədri, AMEA-nın Zoologiya İnstitutunun dosenti, institutun Qadınlar Şurasının sədri, biologiya üzrə fəlsəfə doktoru Yeganə Mahmudova və Azərbaycan Yazıçılar Birliyinin Güney Azərbaycan şöbəsinin rəhbəri Sayman Aruz açıq elan ediblər.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə görkəmli Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin ölkəmizdə "Nəsimi İli" elan edilməsini Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini yaratmış Nəsimi yaradıcılığına, ümumilikdə, Azərbaycan mədəniyyətinə, şeirinə və sənətinə göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi olaraq qiymətləndirib. Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması istiqamətindəki fəaliyyətini xüsusi vurğulayan millət vəkili diqqətə çatdırıb ki, 2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında şairin vəfatının 600 illiyinin, 2018-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda və Şamaxı şəhərlərində, habelə, Moskvada Nəsimi, şeir, incəsənət və mənəviyyat Festivalının keçirilməsi şairin yaradıcılığına göstərilən ehtiramın nəticəsidir.

Ş.Hacıyev vurğulayıb ki, Azərbaycan xalqı dünya poeziya sənətinə böyük töhfələr bəxş edən Nəsiminin 650 illik yubileyini ən yüksək səviyyədə qeyd etməklə, bir daha milli-mənəvi dəyərlərinə olan bağlılığını və tariximizə, dahi şəxsiyyətlərimizə olan ehtiramını nümayiş etdirir.

Tədbirdə AMEA-nın Humanitar Elmlər bölməsinin akademik katibi, AMEA Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, filologiya elmlər doktoru professor Qəzənfər Paşayev, Yunis Əmrə İnstitutunun Bakı filialının direktoru Cihan Özdəmir, Azərbaycan Yazıçılar Birliyinin Yaradıcılıq Məsələləri üzrə katibi İlqar Fəhmi və Əməkdar İncəsənət Xadimi, Respublikanın xalq artisti Əbdül Mahmudov çıxış ediblər.

Tədbirin bədii hissəsində respublikamızın xalq və əməkdar artistləri, görkəmli incəsənət xadimləri, qiraət ustaları çıxış ediblər. Sənətkarların möhtəşəm ifası və musiqiçilərin Nəsimi irsini tərənnüm edən musiqiləri tədbir iştirakçılarına xoş anlar yaşatdı və böyük rəğbətlə qarşılanıb. Tədbirdə Azərbaycan əsilli, tanınmış musiqiçi Sami Yusifin dahi Azərbaycan şairi İmadəddin Nəsiminin "Sığmazam" qəzəli əsasında hazırladığı musiqi kompozisiyası və "Nəsimi" filmindən videoçarxlar nümayiş etdirilib. Foyedə, xüsusi olaraq, hazırlanmış guşədə Heydər Əliyev Fondu tərəfindən çap edilmiş və Seyid İmadəddin Nəsimiyə həsr olunmuş əsərlərdən ibarət kitab sərgisi nümayiş etdirilib.

Sonda tədbirin rəsmi və bədii hissəsinin iştirakçılarına Fəxri Fərmanlar təqdim olunub.

***R.HÜSEYNOVA***

# BAŞ KOMANDAN



Azərbaycan adın ilə öyünür,
El-obanın qəlbi sənlə döyünür.
Hər addımda xoş əməlin görünür,
Sənsən ümid, son pənahı bu xalqın,
Baş Komandan olmağına var haqqın.

Heydər Ata ziyası var üzündə,
Min məna var söhbətində, sözündə.
Azərbaycan bir dünyadı gözündə,
Sənsən ümid, son pənahı bu xalqın,
Baş Komandan olmağına var haqqın.

Şuşa adlı bir nisgil var uzaqda,
Xarı bülbül ağlar qalıb yaylaqda.
Toy-büsat var zəfər günü qabaqda,
Sənsən ümid, son pənahı bu xalqın,
Baş Komandan olmağına var haqqın.

Bu torpağın mən də əsgər qızıyam,
Döyüşçüyəm, hər əmrinə hazıram.
Şəhid olsam, taleyimdən razıyam,
Sənsən ümid, son pənahı bu xalqın,
Baş Komandan olmağına var haqqın.

Ali Baş Komandan İlham Əliyevə həsr olunmuş mahnıya əməkdar artist Təranə Vəlizadənin ifasında klip çəkilmişdir

**Ramiq Muxtar,**
**Prezident təqaüdçüsü,**
**Rəsul Rza adına Beyənlxalq**
**Mükafatı laureat**

# Leyla Abdullayeva: "Ermənistan rəhbərliyi uydurma və heç də inandırıcı olmayan açıqlamalar verməklə məşğuldur"



Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Ermənistan Xarici İşlər Nazirliyinin Naxçıvanda ermənilərə qarşı uydurma qırğınlarla bağlı bəyanatına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, Leyla Abdullayevanın bununla əlaqədar açıqlamasında deyilir: "Təəssüflə qeyd etmək istərdim ki, Ermənistanın hazırkı rəhbərliyi öz sələflərinin təcrübəsini davam etdirərək uydurma və heç də inandırıcı olmayan açıqlamaların verilməsi ilə məşğuldur. Həqiqətdə isə tarixi faktlar onu göstərir ki, məhz erməni silahlı dəstələri hələ 1918-ci ilin martında Bakı, Şamaxı, Quba, Qarabağda, həmin ilin iyun-oktyabr aylarında isə Zəngəzur və Naxçıvan qəzalarında dinc əhalinin kütləvi qırğınlarını həyata keçirməyə başlayıb. Rəsmi Yerevan bunu çox yaxşı bilir. Hətta Ermənistan tərəfi on minlərlə dinc azərbaycanlı sakinin məhz etnik və dini mənsubiyyətinə görə ermənilər tərəfindən qətlə yetirildiyini unutmaq istəsə belə, buna nə tarix, nə də arxivlərdə saxlanılmış sənədlər imkan verməyəcək. Ermənilərin 1918-ci ildə azərbaycanlılara qarşı törətdiyi kütləvi qırğın və soyqırımı siyasəti ilə tanış olmaq üçün Stepan Şaumyanın memuarları və 1926-cı ildə dərc edilmiş Böyük Sovet Ensiklopediyası ilə tanış olmaq kifayətdir.

Bundan əlavə, əgər Ermənistan Xarici İşlər Nazirliyi öz bəyanatlarında ardıcıl olmaq istəyirsə, o zaman Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərinin dinc əhalisinə qarşı böyük qəddarlıqla törədilmiş kütləvi qırğın barədə susmamalıdır. 613 mülki şəxsin, o cümlədən 63 uşaq və 106 qadının qətlə yetirildiyi bu insanlıq əleyhinə cinayət bir əsr deyil, cəmi 27 il bundan öncə törədilib. Ermənistanın keçmiş prezidenti xarici jurnalistlər qarşısında bu cinayətlə bağlı etirafla çıxış etməyə belə çəkinməyərək deyib: "Xocalıdan əvvəl azərbaycanlılar düşünürdü ki, ermənilər mülki əhaliyə əl qaldıra bilməyən xalqdır. Biz bu stereotipi sındırdıq. Bax, bu baş verdi".

Ümumiyyətlə, ATƏT-in Minsk qrupunun həmsədrlərinin əhalini sülhə hazırlamaq çağırışı fövqündə Ermənistan XİN-in bu ritorikası qəribə səsləndiyi qədər zərərlidir. Münaqişənin həlli nöqteyi-nəzərindən emosional fonu gərginləşdirən bu kimi bəyanatlar vermək əvəzinə, Ermənistan XİN "yazıq erməni" obrazını bir kənara qoyub, Azərbaycanın ərazilərinə qarşı əsassız iddialardan əl çəkməli, Azərbaycan ərazilərinin işğalına son qoymalı, münaqişənin həll olunması və iki xalqın sülh, sabitlik, təhlükəsizlik və tərəqqi şəraitində yaşaması üçün konkret addımlar atmaq barədə düşünməlidir".

# Prezident İlham Əliyev yeni əsrin yeni Lideridir

***Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsi olan cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Prezidenti seçildi. Onda İlham Əliyevin 42 yaşı var idi və o, dünyanın ən gənc dövlət başçılarından biri idi. Həmin vaxtdan 16 il keçir. Prezident İlham Əliyev yeni əsrin yeni lideri olaraq Azərbaycanı inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir. Prezident İlham Əliyev mötəbər beynəlxalq təşkilatların - BMT-nin, NATO-nun, ATƏT-in, AŞPA-nın kürsülərində inamlı, cəsarətli, məntiqi çıxışları ilə diqqəti cəlb edir, milli mənafeləri bütün səviyyələrdə qətiyyətlə qoruyur, müstəqil xarici siyasət yürüdür. Qlobal böhranlardan çıxış yolları axtarışında onun fikrinə, rəyinə hörmətlə yanaşılır.***





**Bəhruz QULİYEV,**
**"Səs" qəzetinin Baş redaktoru**

### Hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir

Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir.

Cənab İlham Əliyev SOCAR-ın I vitse-prezidenti, Milli Məclisin deputatı olanda da daima xalq üçün çalışıb, dövlətimizin inkişafı və güclənməsi üçün əvəzolunmaz addımlar atmışdı. 2003-cü ildə isə Prezident seçildikdən sonra cənab İlham Əliyev Azərbaycanın parlaq perspektivi ilə bağlı ideyalarını, planlarını reallaşdırmağa başladı.

Prezident İlham Əliyev düşünülmüş islahatları və müdrik qərarları ilə həyatımıza yeni nəfəs gətirib, Azərbaycanı dünyanın inkişaf edən ölkələri sırasına çıxarıb. Onun siyasətinin mərkəzində insan amili dayanır, amalı qurub-yaratmaq, xalqını daha xoş günə, daha firavan həyata qovuşdurmaqdır. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir. Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində ölkə iqtisadiyyatı sürətli və dinamik inkişaf dövrünə qədəm qoyub.

Dünyada ən sürətli templərlə inkişaf edən Azərbaycanın iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artdı, qeyri-neft ixracı 4,1 dəfə çoxaldı. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan 46 milyard dollara çatdırıldı. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyuldu. Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşdı. Forumun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəldi. Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olundu.

### İlham Əliyev: "Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir"

Ötən müddətdə aqrar-sənaye kompleksində islahatlar genişləndi, ölkədə güclü sahibkarlar sinfi formalaşdı. Bu gün ölkə iqtisadiyyatının şaxələndirilməsi uğurla davam edir. Dövlət xətti ilə sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsinə milyonlarla manat güzəştli kreditlər ayrılır. Aqrar sektor geniş inkişaf yoluna çıxıb və Azərbaycan indi özünün ərzaq təhlükəsizliyini təmin edən nadir ölkələrdən biridir.

"Şəffaflıq hər bir ölkənin gələcəyini müəyyən edən məsələdir. Çünki şəffaflıq olmadan biz heç bir islahatı apara bilmərik və nə iqtisadi, nə siyasi cəhətdən ölkə sürətlə inkişaf edə bilməz", - deyən Prezident İlham Əliyev dövlət strukturlarının fəaliyyətinin təkmilləşdirilməsi və şəffaflığın artırılması, vətəndaşlarla dövlət strukturları arasında bürokratik maneələrin aradan qaldırılması üçün aparılan islahatlar çərçivəsində innovativ addım atdı - Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyini yaratdı.

Prezidentin təşəbbüsü ilə "ASAN xidmət" mərkəzləri yaradıldı, bununla da dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi, daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilən elektron xidmətlərə keçidin sürətləndirilməsi təmin olundu. Bu mərkəzlərə 2013-2019-cu illər ərzində 35 milyona yaxın müraciət daxil olub, xidmətlərin əhali arasında bəyənilmə əmsalı 100 faizə yaxınlaşıb. Təsadüfi deyil ki, Azərbaycan brendi olan "ASAN xidmət" dünyada böyük maraq doğurub və bu təcrübə bir sıra ölkələr tərəfindən öyrənilir.

### Balanslı xarici siyasət, Azərbaycana olan inam və etimad

Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dayaqlarını möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Xarici siyasət kursunda milli maraqlar konsepsiyasına üstünlük verən İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyanda etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi. Bunu sübut edən ən böyük amillərdən biri Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi oldu. Müstəqillik tariximizin ən böyük nailiyyəti olan bu hadisə Azərbaycanda yürüdülən siyasətə və beynəlxalq birliyin Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin, Azərbaycana olan inam və etimadın təzahürüdür. Ölkəmiz, nəticə etibarilə, bütün regional məsələlərdə əsas oyunçuya çevrildi.

İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində erməni təbliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu problemə yönəldi, Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdi. Dünya birliyi Xocalı soyqırımını tanımağa və pisləməyə başladı.

Prezident İlham Əliyevin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş enerji siyasətini uğurla davam etdirməsi nəticəsində Azərbaycan bu sahədə əsas oyunçulardan birinə çevrilib. Dövlətimizin başçısının enerji siyasəti ilə bağlı təşəbbüsləri və reallaşan layihələr regional çərçivələrdən çıxaraq qlobal miqyas alıb. Bir qədər geri qayıdıb tarixə nəzər salmaq lazım gəlir. 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyuldu. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirildi. Bu il TANAP-ın açılışı oldu. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadıldı. Bu hadisə Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaradıb.

Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görüldü. Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı oldu. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikildi. 2018-ci il sentyabrın 18-də yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırıldı. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrildi.

### Şəhərlə kənd arasında fərqi necə aradan qalxır?

Prezident İlham Əliyevin rəhbərliyi altında regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramları şəhərlə kənd arasında fərqi aradan qaldırdı. Bu gün Azərbaycanın regionları bütün zəruri infrastrukturla təmin olunub və Avropanın şəhər və kəndlərindən heç də geri qalmır. Vaxtilə bölgələrimizdə olan bir çox problemlər öz həllini tapdı. Prezidentin tapşırığına əsasən Azərbaycan başdan-başa qazlaşdırılır. Artıq ölkə əhalisinin təxminən 96 faizə yaxını təbii qazdan istifadə edir. Kəndlərə içməli su xətləri çəkilir, yeni yollar salınır və ya əsaslı təmir olunur.

Ardı Səh. 7

# Prezident İlham Əliyev yeni əsrin yeni Lideridir

Əvvəli-Səh-6

Dövlətimizin başçısının regionlara səfərləri, ictimaiyyətlə görüşləri ənənəvi xarakter alıb. İlham Əliyev yerlərdə inşa olunan müasir ictimai-sosial obyektlərin, istehsal müəssisələrinin açılışında şəxsən iştirak edir.

Prezidentin çox böyük rəğbətlə qarşılanan təşəbbüslərindən biri də mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin bölgələrdə keçirdikləri qəbullardır. Nazirlər, komitə sədləri və digər dövlət strukturlarının rəhbərləri yerlərdə əhali ilə görüşür, sakinlərin müraciət və təkliflərini dinləyirlər.




### Azərbaycan dünyada ən güclü 50 ordusu olan dövlətlər sırasındadır

Müharibə şəraitində yaşayan, torpaqları işğal altında olan ölkə üçün ordu quruculuğu həyati əhəmiyyətə malik məsələlərdən biridir. Bunu nəzərə alan Prezident, Ali Baş Komandan İlham Əliyev hakimiyyətinin ilk illərindən müasir silahlarla təchiz olunan, yüksək döyüş qabiliyyətinə malik ordu yaradılması istiqamətində davamlı və qətiyyətli iş aparır.

Bu gün Azərbaycanda dünya miqyasında ən güclü ordulardan biri formalaşıb və bu ordu işğal altındakı torpaqlarımızı düşməndən azad etməyə qadirdir.

Vaxtilə bütün silahları xaricdən alırdıqsa, indi Azərbaycan özü müasir silah və texnika istehsal edir. Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin yaradılması bu istiqamətdə atılmış ən önəmli addımlardan biridir. 2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur.

Azərbaycan Ordusu öz gücünü və döyüş qabiliyyətini 2016-cı ilin aprelində həm düşmənə, həm də dünyaya nümayiş etdirdi. Azərbaycan tarixinə zəfər səhifələrindən biri kimi daxil olmuş Aprel döyüşlərində qəhrəman ordumuz Ermənistanın təxribatına cavab olaraq keçirdiyi əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının ərazilərinin bir qismini, ümumilikdə 2 min hektardan çox torpağı işğalçılardan təmizləyərək böyük bir əraziyə nəzarəti ələ aldı. Bu döyüşlərin ən mühüm yekunu Lələtəpə yüksəkliyinin azad olunması və bununla da Cocuq Mərcanlının təhlükəsizliyinin təmin edilməsi oldu. Cocuq Mərcanlı kəndi qısa müddətdə bərpa edildi, orada 150 evdən ibarət qəsəbə tikildi və köçkünlər öz doğma yurdlarına qayıtdılar.

2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edildi, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü.

### Xəyalı reallığa çevirən LİDER

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Yaxşı xatırlayırıq ki, İlham Əliyev ilk dəfə prezident seçiləndə ölkədə 600 min yeni iş yerinin yaradılacağını vəd etmişdi. Onda bu rəqəm bəzilərinə xəyal kimi görünürdü. İllər keçdi xəyal hesab edilənlər reallığa çevrildi. Ötən 16 ildə Azərbaycanda 1 milyon 900 min yeni iş yeri yaradıldı. Bu və digər addımların nəticəsi olaraq yoxsulluq 50 faizdən 5 faizə düşdü. Maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırıldı.

Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, insanların müasir səhiyyə xidmətləri ilə təmin olunması istiqamətində ardıcıl addımlar atılır. Son 16 ildə ölkədə minlərə məktəb binası tikildi və ya yenidən quruldu, geniş bazaya malik təhsil infrastrukturu yaradıldı, dörd mindən çox məktəb kompüter avadanlığı ilə təmin edildi.

Ölkədə səhiyyə islahatları da uğurla reallaşır. Bu gün təkcə paytaxtda deyil, bölgələrdə də müasir və ən qabaqcıl tibb avadanlığı ilə təchiz olunmuş müalicə-diaqnostika mərkəzləri, xəstəxanalar tikildi, mövcud səhiyyə ocaqları əsaslı şəkildə yenidən quruldu, bölgə sakinləri birbaşa yerlərdə müalicə olunmaq imkanı qazandı.

Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. Son 16 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verildi. Azərbaycan Prezidenti bu məqsədlə Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayırıb. Bundan başqa, şəhidlərin vərəsələrinin maddi vəziyyətinin yaxşılaşdırılması məqsədilə onlara dövlət tərəfindən 11 min manat vəsait verilir.

2003-2019-cu illərdə məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər görüldü, ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edildi, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırıldı.

Ulu öndər Heydər Əliyev deyirdi ki, heç bir fəaliyyət ölkəni dünyada idman qədər tanıda bilməz. Bu ideyanı rəhbər tutan Prezident İlham Əliyev ötən müddətdə Azərbaycanı idman ölkəsinə çevirdi.

Bu məqsədə çatmaq üçün bütün ölkə ərazisində Olimpiya mərkəzləri, müasir idman infrastrukturu yaradıldı, idmançılara diqqət və qayğı artırıldı. Azərbaycanda Olimpiya hərəkatı görünməmiş vüsət aldı. Nəticələr göz qabağındadır. İlk Avropa Oyunlarının keçirilməsi Azərbaycana həvalə olundu. Azərbaycan 42-ci Dünya Şahmat Olimpiadasına, qadınlar arasında voleybol üzrə Avropa çempionatına, IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. Bakıda üç ildir keçirilən dünyanın ən nüfuzlu idman yarışlarından biri - Formula-1 Avropa Qran-Prisi və UEFA-nın yarımfinal oyunu ilə Azərbaycan bütün dünyanın diqqət mərkəzində oldu.

Azərbaycan Rio Yay Olimpiya Oyunlarında böyük zəfərə imza atdı. Tarixdə ilk dəfə hesabına 18 medal yazan milli komandamız medal sayına görə dünyada 14-cü, Avropa ölkələri arasında 7-ci, MDB respublikaları arasında 2-ci, müsəlman ölkələri arasında isə 1-ci yeri tutdu.

### Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir

Prezident İlham Əliyevin milli mənəvi dəyərlərimizə, müxtəlif dinlərə və sivilizasiyalara hörmətlə yanaşması, ölkədə güclü tolerantlıq ənənələrinin daha da möhkəmləndirilməsi Azərbaycanı nəinki regionda, bütövlükdə dünyada multikulturalizmin, dinlərarası və mədəniyyətlərarası dialoqun əsas mərkəzlərindən birinə çevirdi.

Bu gün multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu, artıq bütün dünyada qəbul edilir. Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönələn mühüm layihələrin reallaşdırılması, mötəbər forumların keçirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Tolerantlığın Azərbaycan modeli dünyada ən mükəmməl nümunədir və BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Bakıda keçirilməsi bunu təsdiqləyir.

Prezident İlham Əliyevin mədəniyyət konsepsiyası Heydər Əliyev Fondunun layihələri ilə daha da dolğunlaşıb, ölkəmizin dünyada təbliğinə geniş imkanlar açıb. Bu siyasətin həyata keçirilməsinə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva dəyərli töhfələr verir. Fondun həyata keçirdiyi layihələr sayəsində indi Azərbaycanı dünyada daha yaxşı tanıyırlar. Azərbaycan mədəniyyətinin sorağı hazırda böyük səhnələrdən gəlir.

İlham Əliyevin prezidentlik dövrünün 16 ilinin yekunları göstərir ki, Azərbaycanı qarşıda daha parlaq gələcək gözləyir. Uğurlu fəaliyyət modeli bütün dünya tərəfindən qəbul olunan görkəmli dövlət xadimi kimi beynəlxalq miqyasda böyük nüfuz qazanan Prezident İlham Əliyev Azərbaycana siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi gətirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə dünyada nümunə göstəriləcək bir inkişaf modeli formalaşdı. Bu, modern Azərbaycan dövləti modelidir. Bütün bunlar ölkəmizin gələcək inkişafının qarantı sayıla bilər.

### Azərbaycan xalqı öz liderinə güvənir

Azərbaycan xalqı İlham Əliyevə inanır, onun daha xoşbəxt gələcək vəd edən daxili və xarici siyasətini hamılıqla dəstəkləyir. Ötən il aprelin 11-də Azərbaycanda keçirilən növbəti prezident seçkilərində xalqımızın böyük etimad göstərərək İlham Əliyevi yenidən dövlət başçısı seçməsi bunun əyani təsdiqidir.

Günümüzün bu reallığı beynəlxalq siyasətçilər, ekspertlər tərəfindən də təsdiqlənir: Azərbaycanda həyata keçirilən siyasətin alternativi yoxdur. Xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açır. Bu günümüzün daha bir reallığı isə ondan ibarətdir ki, Azərbaycan sürətli inkişaf yolunda inamla irəliləyir, onu qarşıda daha möhtəşəm uğurlar gözləyir.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin reytinqi sabit və kifayət qədər yüksəkdir. Fransanın "Opinion Way" sosioloji tədqiqat institutunun Azərbaycanda son prezident seçkilərindən bir il sonra keçirdiyi rəy sorğusunun nəticələri əhalinin 85 faizindən çoxunun İlham Əliyevin rəhbərliyi ilə görülən işləri dəstəklədiyini göstərdi. Prezidentin seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala respondentlərin 75,6 faizi müsbət cavab verdi. İnstitutun rəhbəri Brüno Jaubar etiraf edir ki, sorğu azərbaycanlıların öz siyasi rəhbərliyindən çox razı olduğunu birmənalı şəkildə təsdiqlədi. Azərbaycan Prezidentinin fəaliyyəti ilə bağlı daha bir rəy sorğusu bu yaxınlarda Sosial Tədqiqatlar Mərkəzi tərəfindən aparılıb. Sorğu zamanı, ümumilikdə, 1316 respondentdən İlham Əliyevin oktyabr ayındakı fəaliyyətini qiymətləndirmək xahiş olunub. Onların 77,5 faizi ölkə Prezidentinə inam və etimadın daha da artdığını, 18,1 faizi həmişəki inam və etibarın qorunub saxlanıldığını bildirib: üst-üstə 95,6 faiz.

Bir sözlə, göründüyü kimi, dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 16 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənib, ona ən güclü dayaq olub. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq...




MƏTLƏB
Metlebsalahov@mail.ru

# Rüşvət üçün "son zəng"!

Əslində, yazı başlığıma "son zəng" cümləsini əlavə etməyim əməllicə yerinə düşdü, deyəsən. Sözün əsl mənasında, Azərbaycan cəmiyyəti ictimai-siyasi həyatında, sosial sferasında əməlli-başlı "son zəng" dövrünü yaşayır. Təkcə köhnə fikirliləri tarixin arxivinə yola salmaqla deyil, həm də on illərdir ki, yerində saymaqla, ölkə cəmiyyətini ictimai-sosial ûfunətə, öz rüşvət cəhənnəminə çevirənlərin qorxulu virus kimi cəmiyyətin orqanizmindən çıxarılması da əsl "SON ZƏNG"DİR. Rüşvət və korrupsiya üçün çalınan son zəng!

Ölkə Prezidentinin son bir neçə ay ərzində, ardıcıl olaraq, Azərbaycan cəmiyyətini, nəfəs borusuna düşmüş vuris kimi boğmaqda olan rüşvət və korrupsiya şəbəkəsini ifşa edib, aradan çıxarmaq üçün atdığı çox ciddi addımlar, nəhayət ki, bu ölkədə rüşvət üçün "son zəng" çalınacağına böyük ümidləri də bərabərində gətirib. Təsəvvür edin ki, yoxsul insanlar üçün nəzərdə tutulan ödəniş kartlarına qədər hər şeyə göz dikən, dövlət başçısı demişkən, Allahından belə qorxmayan, bütün bunlarla da alçalan və dövlət məmuru imicini də özü ilə bərabər cəmiyyətin gözündən salan, bu imici ayaq altında əzdirən, illərdir ki, dövlət məmuru əvəzinə, kriminal rüşvət mafiyası kimi dövlət və xalq malına daraşan ünsürlər bir-bir ifşa olunur və məhkəməyə çıxarılır. Sözsüz ki, bu prosesin davamlı olması, "papaq altında yatan" daha dərin rüşvət qruplarının da gün üzünə çıxarılması çox vacibdir. Ən azı, ona görə ki, başlanan islahatların, dövlət strukturlarının natəmiz adamlardan silinməsi üçün başlanan işə və insanların bu işə olan ümidlərini puç etməmək üçün bu işin davamının gəlməsi çox önəmlidir. Çox vacibdir, çox! Bunun üçün, ilk növbədə, ictimai təpki, aparılan işlərə ictimai nəzarət olmalıdır. İctimai nəzarət rüşvətə qalib gəlmək üçün ən effektiv faktordur.

Dövlət başçısı yerli telekanallarla müsahibəsində gözəl bir məqama toxundu. Sitat: "Mən dəfələrlə demişəm ki, ictimai nəzarət daha güclü olmalıdır. Bunu, sadəcə, söz naminə demirəm. Bəlkə də, bir çox hallarda, bunu təkrarlayıram. Nəyə görə? Çünki bu, yoxdur bizdə. Bilirsiniz, ya yoxdur, ya da ki, ibtidai vəziyyətdədir. Belə olmaz, ictimai nəzarət olmalıdır. Əgər ictimai nəzarət olmasa, biz məlumatı haradan əldə edəcəyik? Mən, misal üçün, bildirmişəm və bir daha demək istəyirəm ki, bəzi hallarda, mən mətbuatdan bir çox şeyləri öyrənirəm. Çünki bəzi məsələlər mənə məruzə edilmir. Çünki sərf etmir o adamlara məruzə etmək." Buyurun, bu da mövqe!

Dövlət başçısı, açıqca bu faktı ortaya qoydu ki, bizdə ictimai nəzarət funksiyası yoxdur, cənablar və xanımlar!!! Əgər rüşvətxoru ifşa edib mətbuatlı-cəmiyyətli biabır etməsək, hüquq-mühafizə orqanları operativ şəkildə cəmiyyətin və dövlətin nüvəsinə daraşıb gəmirən bu cinayətkarlara qarşı son dərəcə amansız mövqe tutmasalar, "beş-üç manat verib yenə də canlarını qurtaracaqlar" fikri alt-üst edilməsə, getdi bütün çəkilən zəhmətlər işinin dalınca.

İndi gələk bizim neçə əsrlərdir ki, bizimlə yol gələn görülən işə mız qoymaq adətimizə. İstər müxalifətdə ol, istər bitərəf ol, gerçəkdən görülən real işə "mız qoymaq", ona qara yaxmaq şəxsiyyət üçün alçaldıcı faktdır, vəssalam. İnsanın daxilində vicdan deyilən adil hökmdar var və hansı düşərgədə olmasından asılı olmayaraq, hər kəs o vicdan şahını ürək taxtından salmamalıdır. Yoxsa insanın daxilindəki nizam-tərzi itir və sən istənilən vicdansızlıq işində əsas aktyora çevrilirsən. Rüşvət, rüşvət alanlar və rüşvət verənlər milyon illər əvvəl də olub, indi də var və milyon illər sonra da olacaq. Əsas məsələ qanunları hökmdara çevirib bu rüşvət bazarının kələyini kəsməkdir. Yoxsa onlar var gücü ilə cəmiyyətin "belini qırmağa" başlayırlar.

İndi də sadə insanları boğaza yığan bəlalərinin "ovlanması" başlayıb və gərək, cəmiyyət olaraq, hamımız buna dəstək verək. Çünki bu və digər formada elə bizlərin hər biri bu rüşvət bazarının canlanmasında zərrə qədər də olsa, rol oynayırıq əzizlərim. Dayanın, dayanın, o saat məni asmağa tələsməyin, bu sözümə görə. Axı, qanunla sırada növbə gözləyib sənədimizi almaq əvəzinə, kağızın arasına "beşdən-üçdən" qoyub qabağa keçmək həvəsinə düşən, səbr edib hansısa işimizi qanunla həll etmək əvəzinə, həmin işimizi hansısa "hədiyyə paketi" ilə aşırmağa çalışan və bununla da, rüşvətxorları yemləyən də bizlərik. Yalan deyirəm? Qətiyyən! Hə, o başqa məsələ ki, sənin qanunla iş görmək tələbinin əvəzinə, həmin rüşvətxor məmura təpki əvəzinə, "gözümün üstündə yerin var" deyən havadarlar tapılır. Elə buna görə də, dövlət bu cür havadarları əbədi istirahətə yollayır da. Odur ki, rüşvətxorlar üçün "son zəngi" ya özümüz çalacayıq, ya da həmin rüşvətxorlar bizim sonumuz üçün zəng çalacaqlar, vəssalam!

# Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikintisi uğurla davam edir

*Dövlət başçısının Sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikintisi məqsədilə dövlət büdcəsindən 20 610 000 (iyirmi milyon altı yüz on min) manat ayrılıb*

***Ölkəmizdə sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar daim üzərilərində dövlətimizin diqqət və qayğını hiss edirlər. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli, sosial müavinətinin gücləndirilməsi daim diqqət mərkəzindədir.***



Ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin və bu döyüşlərdə sağlamlıqlarını itirirmələri nəticəsində, əlilliyi olan şəxslərin mənzillə təminatı ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin şəhid ailələrinə və müharibə əlillərinə xüsusi qayğısı nəticəsində, bu tədbirlər ildən-ilə gücləndirilir. Yeni yaşayış binasından mənzillər alınaraq, həmçinin, fərdi yaşayış evləri inşa edilərək, həmin kateqoriyalardan olan vətəndaşlara təqdim edilir.

Görülən işlərin davamı olaraq, dövlət başçısı dekabrın 24-də Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəcama əsasən, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün fərdi evlərin tikintisi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.18.3-cü yarımbəndində göstərilən vəsaitin 20 610 000 (iyirmi milyon altı yüz on min) manatı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılıb. Bu, respublikamızın bölgələrində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün yeni fərdi yaşayış evlərinin tikintisi işlərinin uğurla davam etdirilməsinə təminat verir. Dövlət başçısının şəhid ailələrinə və müharibə əlillərinə xüsusi qayğısı həmin insanların mənzillə təminatı tədbirlərinin gələn il də yüksələn xətt üzrə davam edəcəyinə, növbəti ildə daha 1500 şəhid ailəsinin və müharibə əlilinin mənzillə və fərdi evlərlə təmin ediləcəyinə zəmin yaradır.

Bütün bu addımlar Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Ölkədə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində, göründüyü kimi, əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb və insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Fondun Müşahidə Şurasının növbəti iclası keçirilib

Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib:



1. Fondun 2020-ci ilin I yarısı üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqi;

2. Fondun 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsi və təsdiqi.

Müzakirəyə çıxarılan birinci məsələ barədə məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, KİVlərə maliyyə yardımı müsabiqəsinin 2019-cu il dekabrın 26-dan 2020-ci il yanvarın 10-dək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirilməsi nəzərdə tutulur. V.Səfərli KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqənin elanında hər hansı dəyişikliyin nəzərdə tutulmadığını bildirib. İcraçı direktor, həmçinin vurğulayıb ki, 2019-cu ilin II yarısında olduğu kimi, 2020-ci ilin I yarısında da ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya (gündəlik, günaşırı və həftəlik) bölünməsi və maliyyələşdirilməsi təklif edilir. Sonra Müşahidə Şurasının üzvləri müsabiqə elanı ilə bağlı fikirlərini bölüşüblər. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən Cəmaləddin Quliyev, Bəhruz Quliyev, Əvəz Rüstəmov, Ramiz Əskər, Rasim Həsənov və Ayaz Mirzəyev KİV-lər üçün keçirilən müsabiqənin onların maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayıblar. Müsabiqə elanı səsə qoyularaq təsdiq edilib.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən Vüqar Səfərli bildirib ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə 2019-cu il noyabrın 8-dən dekabrın 13-dək keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinə 56 KİV-dən 150 yazı daxil olub. Yazılar 12 ekspert tərəfindən qiymətləndirilib. Ekspertlərin qiymətləndirməsinə əsasən, 19 nəfər I, 38 nəfər II, 56 nəfər III yerə layiq görülüb. Nəticələrlə tanış olan Müşahidə Şurasının üzvləri fərdi jurnalist yazıları müsabiqələrinin peşəkar jurnalist yaradıcılığının stimullaşdırılması və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini vurğulayıblar. Sonda müsabiqənin nəticələri səsə qoyularaq təsdiq edilib. İclasda Fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə də müzakirələr aparılıb.

# İLHAM ƏLİYEV FAKTORU GÜCLÜ LİDER, QÜDRƏTLİ DÖVLƏT AMİLİNİN BARİZ GÖSTƏRİCİSİDİR

*Kimsəyə sirr deyil ki, hər bir ölkənin və xalqın beynəlxalq miqyasda tanınmasında, nüfuzunun artmasında, davamlı nailiyyətlər əldə etməsində, həmçinin, qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlik amilinin xüsusi yeri və rolu mövcuddur. Çünki lider o şəxsiyyətə deyilməlidir ki, rəhbərlik etdiyi dövlətin, ona etimad göstərmiş xalqın maraqlarını bütün imkanları ilə müdafiə edir, gerçəkləşdirir, cəmiyyətin enerjisinin səfərbər edilməsi ilə vətəndaşların taleyində əhəmiyyətli reallığa çevrilir. Belə ki, bu cür liderlərin mövcudluğu, təbii ki, xalqların perspektivinin qarant altında olmasına və dinamik inkişaf yoluna çıxmasına zəmin yaratmış olur. Ancaq daha bir fakt budur ki, tale hər bir xalqa bu cür mühüm xarizmalara sahib ola biləcək lider bəxş etmir. Və nə xoşdur ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev dühasının tarixi liderliyini qəbul etməklə, yaşatmaqla bərabər, hazırda Onun layiqli davamçısı Prezident İlham Əliyev Liderliyi dövrünü yaşayır!*

Məhz bu kimi önəmli faktorun təhlilini aparırkən, Azərbaycanın bu siyahıda birinci olması şəksizdir. Çünki Azərbaycanın inkişaf və tərəqqi, eləcə də, xalqın rifahı faktorunda İlham Əliyev LİDERLİYİ amili mövcuddur. Artıq 16 ildən çoxdur ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində, perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir. Məhz Prezident İlham Əliyevin son illər ərzində, həyata keçirdiyi inqilabi sosial-iqtisadi və siyasi islahatlar müasir Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, regional gücünü və qlobal əhəmiyyətini kifayət qədər artırmış olub. Azərbaycan xalqı son 26 ildə Ulu Öndər Heydər Əliyevin və Onun siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin fəaliyyəti sayəsində davamlı inkişafın və tərəqqinin şahidinə çevrilib. Bu baxımdan, hazırda müasir beynəlxalq münasibətlər sistemində söz sahibi olan, planetimizin müxtəlif bölgələrində münaqişələrin, siyasi kataklizmlərin, kollapsların müşahidə olunduğu, həmçinin, aparıcı ölkələrin iqtisadi və maliyyə böhranından əziyyət çəkdiyi bir dövrdə yüksələn xətlə inkişaf edən müstəqil Azərbaycan Respublikası xalqımızın tarixi nailiyyəti, ən böyük sərvətidir və qürur mənbəyidir!

"Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir.

O da sirr deyil ki, Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövründə yeni meyarlar üzərində formalaşmış mütərəqqi idarəçilik ənənələrinin, məhz bu sistem hüdudlarında püxtələşən, Heydər Əliyev siyasi xəttini dönmədən davam etdirməyə qadir, peşəkar, intellektual səviyyəli, dünya miqyasında cərəyan edən proseslərin mahiyyətini duyan praqmatik Lider tərəfindən davam etdirilməsi Azərbaycanın iqtisadi və geosiyasi durumundan irəli gələn tələbat olmuşdur.

Həmçinin, dövlətimizin başçısı bu müddətdə cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir vətəndaşın marağına cavab verən, cəmiyyət həyatının ən müxtəlif sahələrində uğurlu nəticələrə yol açan çevik, qətiyyətli və düzgün qərarlar qəbul etmişdir. Cənab İlham Əliyevin zamanla səsləşən idarəçilik üslubunda diqqəti çəkən üstün cəhət, məhz bundan ibarətdir ki, ölkə başçısı mövcud reallığı obyektiv şəkildə qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə ən optimal və düzgün qərarlar qəbul etməyi, habelə, ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır. Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsini dərindən mənimsəmiş Cənab İlham Əliyev Ulu Öndərimizin möhkəm əməllər üzərində formalaşdırdığı idarəçilik ənənələrini davam etdirmək üçün zəruri liderlik keyfiyyətlərinə malikdir. Praqmatizm, səmimilik, siyasi iradə və qətiyyətlilik, məqsədyönlülük, mütərəqqi islahatlara meyillilik, öz siyasətini reallaşdırarkən hər bir fərdin, qrupun, ümumilikdə, toplumun maraqlarını nəzərə almaq qabiliyyəti kimi mühüm keyfiyyətlər Prezident İlham Əliyevin fenomen siyasi lider obrazını şərtləndirən mühüm elementlər sırasında xüsusi vurğulana bilər.

### Bütün problemlərə milli dövlətçilik prinsipləri kontekstindən yanaşan alternativsiz dövlət başçısı

Geridə qalan müddətdə Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə vacib amil olan ictimai-siyasi sabitlik qorunub-saxlanılmış, vətəndaş sülhünə və həmrəyliyinə, qanunun aliliyinə xidmət edən mükəmməl konsepsiyanın həyata keçirilməsində tamamilə yeni mərhələnin əsası qoyulmuşdur. Onun, ötən dövr ərzində, inamla davam etdirdiyi sosial-iqtisadi inkişaf strategiyası, böyük uğurla həyata keçirdiyi islahatlar, həm də onun yüksək idarəçilik qabiliyyətinin və mükəmməl iş təcrübəsinin əyani təzahürü kimi dəyərləndirilə bilər. Ölkənin bütün problemlərinə milli dövlətçilik prinsipləri kontekstindən yanaşan, cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarını dəqiq şəkildə qiymətləndirməyi bacaran, eyni zamanda, ictimai həyatın müxtəlif sahələrindəki çətinliklər və nöqsanlar haqqında aydın təsəvvürə malik olan Prezident İlham Əliyev, məhz bu keyfiyyətləri sayəsində yeni dövr üçün qarşıda duran prioritet vəzifələri dəqiq şəkildə müəyyənləşdirməyə müvəffəq olmuşdur. Azərbaycan Prezidenti, həmçinin, bəyan etmişdir ki, müasir dünyada iqtisadi inkişaf potensialı hər bir dövlətin gücünü müəyyən edən başlıca amil kimi çıxış edir. Cənab İlham Əliyev xüsusi qeyd etmişdir ki, ölkənin və xalqın bütün problemlərinin, sosial çətinliklərin aradan qaldırılmasından tutmuş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinədək hər bir maneənin dəf edilməsinin ən optimal yolu, məhz iqtisadi tərəqqidən keçir. Dinamik inkişafda olan iqtisadiyyat sabitlik, əmin-amanlıq, demokratiya və vətəndaş cəmiyyəti, milli təhlükəsizlik, effektiv xarici siyasət deməkdir. Təsadüfi deyildir ki, həm Ümummilli Liderimiz Heydər Əliyevin hakimiyyəti illərində, həm də Azərbaycan Prezidenti İlham Əliyevin sonrakı üç illik fəaliyyəti dövründə əsas ağırlıq mərkəzi bu sahənin üzərinə salınmışdır.

Beləliklə, güclü, mobil və yüksək iş qabiliyyətli komandaya malik olan dövlət başçısı



**MÜXTAR NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədrinin birinci müavini**

hökumət qarşısında duran prioritet vəzifələri düzgün müəyyənləşdirməklə, yeni dövrün ən səciyyəvi cəhəti kimi, ilk növbədə, milli iqtisadiyyatda struktur dəyişikliklərinə nail olmağın, kəmiyyət dəyişikliklərini keyfiyyət müstəvisinə keçirməyin zəruriliyini önə çəkmişdir. "Bizim hamımızın vəzifəmizdir ki, ölkədə bu siyasəti davam etdirək, əldə olunan uğurları artıraq və hərtərəfli inkişaf üçün böyük imkanlardan istifadə edərək, qoyulmuş bu gözəl təməl üzərində müasir Azərbaycan yaradaq " deyən Cənab İlham Əliyev imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə, obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, həyata keçirdiyi islahatlarla iqtisadi mexanizminin daha da çevikliyinə və işləkliyinə nail olmuşdur.

### Sosial-iqtisadi sahədə qazanılan uğurlar, inamla həyata keçirilən qlobal layihələr...

Cənab İlham Əliyevin sosial məsuliyyət prinsipinə ciddiliklə riayət edərək, fəaliyyəti ilə bağlı vaxtaşırı xalq qarşısında hesabat verməsi Onun müstəqil dövlətçilik tariximizdə əsasını qoyduğu xoş ənənələrdən birinə çevrilmişdir. "Biz xalqın xidmətçiləriyik" deyən Cənab İlham Əliyev özünün də sıravi vətəndaşlarla ünsiyyətdə söylədiyi kimi, komandasının hər hansı üzvünün tutduğu vəzifəyə nə dərəcədə layiqliyini Onun xalqa göstərdiyi xidmətlə müəyyənləşdirir.

Dövlət başçısının vətəndaşlarla birbaşa təmaslara üstünlük verməsi, onlarla səmimi ünsiyyətdə olması, narahatlıq doğuran problemlərin yerindəcə həlli üçün operativ göstərişlər verməsi ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir.

Prezident İlham Əliyev sosial-iqtisadi inkişafa xidmət edən kompleks tədbirlərlə yanaşı, respublikamızın beynəlxalq əməkdaşlığında mühüm rol oynayan transmilli layihələrin gerçəkləşdirilməsi məsələsini də xüsusi diqqət mərkəzində saxlamışdır. Sosial-iqtisadi sahədə qazanılan uğurlar, inamla həyata keçirilən qlobal layihələr Azərbaycanı həm də beynəlxalq əməkdaşlıq mərkəzinə çevirməklə, Onun xarici siyasətdə, diplomatiya sahəsində mühüm uğurlar qazanmasını təmin edir. Ötən üç ildə əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış, milli maraqları özündə ehtiva edən xarici siyasət kursunu inamla davam etdirən Azərbaycan Prezidenti bu doktrinanı yeni taktiki gediş və manevrlərlə zənginləşdirmişdir.

Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın milli mənafelərinə və beynəlxalq hüquq normalarına uyğun həlli istiqamətindəki diplomatik fəaliyyətini də xüsusi vurğulamaq lazımdır. Xüsusilə, aprel müharibəsindən sonra biz Onun işğalçılara qarşı səsləndirdiyi bəyanatlarından da gördü ki, Azərbaycan heç vaxt öz torpaqlarının işğal faktı ilə barışmayacaq. Prezident Cənablarının səngərlərdə əsgərlərlə görüşləri, eləcə də, cəbhə xəttində yaşayan sadə vətəndaşlar qarşısındakı çıxışları hər bir azərbaycanlını sevindirir və qürurlandırır!

### Milli birliyin möhkəmləndirilməsində milli həmrəylik faktoru

Prezident İlham Əliyev bütün xarici səfərlərdə, görüşlərdə bu problemi ön plana çəkir, ölkəmizin haqlı mövqeyini bir daha dünya ictimaiyyətinin nəzərinə çatdırır. Dövlət başçısı problemi Azərbaycanın ümdə maraqları qorunmaqla, beynəlxalq hüquq və normaları çərçivəsində sülh yolu ilə həlli üçün bütün mümkün imkanlardan istifadə edəcəyini dəfələrlə vurğulamışdır. Nəticədə, rəsmi Bakının münaqişə ilə bağlı mövqeyinin getdikcə güclənməsi müşahidə olunur və bunu dövlət başçısı İlham Əliyev də razılıqla bildirmişdir.

Ölkədə kadr siyasəti və dövlət idarəçiliyi məsələlərində Azərbaycanın bütün vətəndaşlarının iştirakının təmin edilməsi, müxalifətin sağlam, konstruktiv dialoqa dəvət olunması, əldə edilən iqtisadi nailiyyətlərdən hamının bacarıq, zəhmət və əqli imkanlarına görə bəhrələnməsi Prezident İlham Əliyevin milli birliyin möhkəmləndirilməsi istiqamətində atdığı addımlardır.

Ümumiyyətlə, dövlət başçısının fəaliyyəti həm də ölkənin inkişafı baxımından, strateji sahə olan elm və təhsilə qayğı nümunələri ilə zəngindir. Bu müddətdə elmin inkişafına diqqət artırılmış, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyə təminatı, əsas fundamental və tətbiqi elmlərin inkişafı üzrə görüləcək tədbirlər müəyyənləşdirilmişdir. Elmin, təhsilin, mədəniyyətin, idmanın və s. sahələrin inkişafı üçün atılan addımlar buna sübutdur. Birmənalı qənaət bundan ibarətdir ki, Ulu Öndər Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli xidmət amalı üzərində qurulmuşdur. Dövlət başçısı hər addımında milli maraq və mənafeləri uca tutmaqla, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Bütün bunlar, bir daha təsdiqləyir ki, Azərbaycan xalqını firavan gələcəyə aparan bu siyasətin davamlılığı qarşıdakı illərdə də təmin olunacaq, müstəqil respublikamız Cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirərək dünyanın qabaqcıl dövlətləri sırasında layiqli yerini tutacaqdır.

Ən əsas amil isə, təvazökarlığı həyat tərzinə çevirən Prezident İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. O, hər bir vətəndaşının problemini öz problemi, qayğısını öz qayğısı kimi qəbul edir. Məhz buna görə, iştirak etdiyi bütün seçkilərdə xalqın mütləq əksəriyyətinin səsini və etimadını qazanır. O, dəfələrlə sübut edib ki, parlaq zəkası, peşəkar idarəçilik qabiliyyəti və praqmatik yanaşması ilə Azərbaycanı daha böyük zirvələrə aparacaq.

Bizlər də Prezident İlham Əliyev Cənablarını bu münasibətlə təbrik edir, Ona can sağlığı, davamlı uğurlar və daha böyük zirvələri fəth edən qələbələr arzulayırıq!

# İLHAM ƏLİYEV STRATEGİYASI - XALQI ZƏFƏRLƏRƏ APARAN QƏLƏBƏ YOLU

***Azərbaycan Respublikası dövlət müstəqilliyinin 28 ili ərzində dərin və hərtərəfli böhrandan qlobal dəyişikliklərə və böyük inkişafa doğru məsuliyyətli və şərəfli yol keçmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkəmizi böhrandan çıxarmış və gələcək inkişafın mühüm təməllərini atmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük hədəfləri uğurla dəf edərək və müstəqil dövlətimizi bütün istiqamətlər üzrə inkişaf etdirərək, uca zirvələrə çatdırmışdır. Bunlar ölkəmizin müstəqillik dövrü inkişafının İlham Əliyev zirvələridir. Məhz müstəqil Azərbaycan Respublikasının ən yeni dövrü də ölkəmizin Prezidentinin adı və yorulmaz fəaliyyəti ilə üzvi surətdə əlaqədardır. Dövlətimizə böyük uğurla rəhbərlik etdiyi on altı il müstəqillik dövrünün yarıdan çoxunu təşkil edir. Özünəməxsus çətinliklərlə, mürəkkəb situasiyalarla müşayiət olunan bu illər, eyni zamanda, həm də müstəqillik tariximizin salnaməsinə həkk olunmuş tarixi zəfərlərlə, yeni-yeni nailiyyətlərlə zəngindir.***



**İsa HƏBİBBƏYLİ,
AMEA-nın vitse-prezidenti,
Milli Məclisin Elm və Təhsil
Komitəsinin sədri, akademik**

Azərbaycan Respublikasının son on altı ildə qazandığı böyük uğurları Prezident İlham Əliyev çətinlikləri yararaq, maneələri dəf edərək, möhkəm siyasi iradə, düşünülmüş və məqsədyönlü siyasət nəticəsində, əldə etməyə müvəffəq olmuşdur. Bu illər Azərbaycan tarixində müstəqillik mərhələsinin keçid proseslərinin yekunu, yeni inkişafın böyük startı və cəmiyyət həyatının bütün sahələrinin ahəngdar şəkildə hərəkətə gətirilərək, böyük addımlarla irəli getməsi dövrüdür. İndi Azərbaycanda elə bir sahə tapmaq olmaz ki, həmin istiqamətdə, nəinki tərpəniş, irəliləyiş, sözün əsl mənasında, böyük inkişaf əldə edilməmiş olsun.

### 2003-2019-cu illər - İlham Əliyev erası

İqtisadçı alimlər müstəqil Azərbaycanın Prezidenti İlham Əliyev mərhələsini hərtərəfli inkişaf dövrü kimi səciyyələndirirlər. Tarixçilər 2003-2019-cu illəri müstəqil Azərbaycanın inkişafının yeni tarixi epoxası hesab edirlər. Filosoflar bu dövrdən davamlı və dayanıqlı inkişaf illəri kimi söz açırlar. Ədəbiyyatçıların nəzərlərində isə, bu dövr haqlı olaraq, İlham Əliyev erası adlandırılır. Prezident İlham Əliyev erası - müstəqillik dövrü Azərbaycan tarixinin xüsusi inkişaf mərhələsidir. Prezident İlham Əliyev erası - dövlət müstəqilliyi dövrünün çiçəklənən epoxasıdır. Prezident İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövr müstəqil dövlətçiliyin özünütəsdiq mərhələsidir.

Məhz bu illərdə Azərbaycan Respublikası həm regionda, həm də dünya birliyində özünün siyasi-mənəvi varlığını həmişəlik isbat etmişdir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin strategiya kimi müəyyən etdiyi "Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir" bəyanatı ideyadan reallığa çevrilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin sayəsində Azərbaycan Respublikası dünyada müstəqil siyasət həyata keçirən, hərtərəfli şəkildə inkişaf etmiş və böyük gələcəyi olan bir dövlət kimi, bütün səviyyələrdə qəbul olunur. Müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin idealı, Prezident İlham Əliyevin gerçəkliyidir. Ölkəmizdə dövlət idarəçiliyində siyasi varisliyin təmin edilməsi siyasi idealın reallığa çevrilməsi ilə nəticələnmişdir.

İlham Əliyev gerçəkliyi - bütün yönləri ilə inkişaf etmiş müasir Azərbaycandır. İlham Əliyev gerçəkliyi - dünya birliyində söz sahibinə çevrilmiş Azərbaycan Respublikasıdır.

İlham Əliyev gerçəkliyi - Azərbaycanın və xalqımızın böyük gələcəyinin etibarlı şəkildə təmin edilməs və zəfərlərə aparan qələbə yoludur.

### İlham Əliyev - əlli milyonluq xalqın qüdrətli lideri!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dünyanın inkişaf etmiş dövlətlərinin liderləri ilə bir sırada dayanan görkəmli dövlət xadimi olması faktı da real gerçəklikdir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının timsalında, bir dövlətin mükəmməl bir rəhbəri olmaqla bərabər, əlli milyonluq xalqın qüdrətli LİDERİDİR.

Prezident İlham Əliyev - planetin taleyüklü məsələlərinin həllində söz sahibi olmaq haqqı qazanmış adlı-sanlı liderlərdən biridir. Siyasi liderlik üçün xarakterik olan zəngin dövlət idarəçiliyi təcrübəsi, möhkəm siyasi iradə, müdriklik və uzaqgörənlik, qətiyyət və cəsarət, natiqlik məharəti kimi keyfiyyətlərin hamısı Prezident İlham Əliyevin şəxsində ahəngdar şəkildə birləşmişdir. Hətta İlham Əliyevin hərtərəfli inkişaf etmiş dövlət xadimi kimi əldə etdiyi böyük nailiyyətlər siyasi liderlik anlayışını daha da zənginləşdirmişdir. Dövlətçiliklə əlaqədar məsələlərə həm içəridən, dərindən baxmağı bacaran İlham Əliyev həm də müstəqil dövlətin daxilində və beynəlxalq müstəvidə baş verən proseslərə siyasi Olimpin fövqündə dayanaraq nəzər salmaq qabiliyyətini nümayiş etdirməklə, dövlət idarəçiliyində qeyri-adi dərəcədə istedada və fərqli yanaşmalara malik olduğunu nümayiş etdirmişdir.

Dövlətçilik üçün qəbul edilmiş ənənəvi, ümumi prinsiplərdən əlavə, bir neçə xarici dildə sərbəst danışması, çevik analitik təfəkkürü və hazırcavablığı ilə, o, siyasi liderlik missiyasının fərqli bir səviyyəsini nümayiş etdirir. Bu mənada, akademik Ramiz Mehdiyevin aşağıdakı fikirləri Prezident İlham Əliyevin yüksək siyasi liderlik xüsusiyyətlərini bütün dolğunluğu ilə ifadə edir: "Prezident İlham Əliyevin dövlətçilik fəaliyyəti Azərbaycanın siyasi, iqtisadi və mədəni landşaftını dəyişib... O, müasir dövrdə dövlət başçısı üçün zəruri olan bütün keyfiyyətlərə malikdir. İlham Əliyevə Azərbaycan xalqını öz arxasınca aparmaq missiyasını tarix və yeni dövr özü həvalə edib. Məhz o, ölkə tarixinin məsul mərhələsində müstəqil dövlətin inkişafını və cəmiyyətin bir formasiyadan digərinə keçidinin başa çatmasını təmin edə bilib. İlham Əliyev XXI əsrdə siyasi lider üçün zəruri keyfiyyətlərə malikdir. Çiçəklənən müasir Azərbaycan Onun əsəridir, millətin həqiqi lideri kimi, Onun iradəsinin, zəkasının və istedadının nəticəsidir. Prezident İlham Əliyev fitri liderlik istedadına malikdir".

Dövlət idarəçiliyi üçün ən səciyyəvi keyfiyyətləri özündə cəmləşdirən Prezident İlham Əliyev Azərbaycanın müstəqil dövlətçilik təliminə mühüm yenilikləri də əlavə etməyi bacarmışdır. Çoxvektorlu daxili və xarici siyasət aparmaq Onun universal dövlətçilik təfəkkürünün parlaq təzahürüdür. Beynəlxalq aləmdə ikitərəfli əlaqələrdən çoxqütblü tərəfdaşlığa doğru düşünülmüş addımların atılması Azərbaycanın dünya siyasətindəki tarazlı mövqeyini inkişaf etdirib, daha da möhkəmləndirməsinə təminat verir.

Azərbaycan Respublikasının 155 ölkənin etimadını qazanaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, Avropa Şurasının Nazirlər Şurasına, Qoşulmama Hərəkatına sədrlik etmək səlahiyyətləri qazanması Prezident İlham Əliyevin apardığı xarici siyasətin böyük uğurlarıdır. Eyni zamanda, ölkə rəhbərinin düşünülmüş şəkildə həyata keçirdiyi çoxvektorlu siyasət kursu dünyada bundan əvvəl ağır fəsadları yaşanmış təkqütblü inkişafın aradan qaldırılmasına və qarşılıqlı əməkdaşlığın inkişafına sanballı töhfələr verir.

Bundan başqa, iqtisadiyyatın şaxələndirilməsi siyasətini həyata keçirməsi İlham Əliyevə neft gəlirlərindən asılı olan Azərbaycanı ölkənin digər təbii sərvətlərindən, xidmət sahələrindən və daxili potensialından gəlir əldə edən bir respublikaya çevirmək imkanları yaratmışdır.

### İlham Əliyev - dünyanın nümunəvi liderlik faktoru!

Cəsarətlə demək olar ki, Prezident İlham Əliyev Azərbaycan dövlətçiliyində postneft dövrü inkişaf modelinin yaradıcısıdır. Prezident İlham Əliyev böyük bacarıqla Ulu Öndər Heydər Əliyevin imzaladığı "Əsrin müqaviləsi"nin müddəalarını tam yerinə yetirməklə, Azərbaycanın neft sərvətlərinin xalqımıza xeyir və uğur gətirməsinə tam nail olmuşdur. Bakı-Tbilisi-Ceyhan (Ərzurum) neft-qaz kəməri görkəmli dövlət xadimi Heydər Əliyevin başladığı, Prezident İlham Əliyevin tamamladığı və başa çatdırdığı beynəlxalq layihədir. Bunlar Azərbaycan Respublikasının inkişafının arteriyasıdır. Bununla belə, İlham Əliyevin uzaqgörənliyi sayəsində postneft dövrünün reallıqları ölkədə aqrar sektorun, turizm şəbəkəsinin və nəqliyyat faktorunun inkişaf etdirilməsi siyasətini meydana qoymuşdur.

Hazırda dövlət büdcəsinin formalaşdırılmasında qeyri-neft sektorunun yeri və həcmi artmaqda davam etməkdədir. Azərbaycan postneft ölkəsi olaraq, enerji resurslarından əldə etdiyi gəlirlər hesabına böyük miqyasda inkişaf etdirilmiş yüksək texnologiyalar və yeni nəqliyyat dəhlizləri ölkəsi statusu qazanmışdır. İlham Əliyev dühasının şah əsərlərindən biri olan Bakı-Tbilisi-Qars dəmir yolu XXI əsrin Dəmir İpək Yolu kimi tanınmışdır. Avropa ilə Asiyanı əlaqələndirən "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat magistrallarının yaradılması, nəticə etibarilə, Azərbaycanı dünyanın magistral inkişaf yollarına çıxarmaq sahəsində atılmış nəhəng addımlardır.

### İlham Əliyev- Azərbaycanı dünyanın mərkəzinə çevirən bariz dövlət başçısı!

Bu gün iqtisadi siyasətin tərkib hissəsi kimi, məqsədyönlü şəkildə aparılan nəqliyyat-logistika siyasəti nəticəsində Azərbaycan, artıq Avropa ilə Asiyanı əlaqələndirən ölkə olmağın geniş imkanlarından istifadə edərək, iqtisadi baxımdan, fayda götürən və gəlir əldə edən bir dövlət kimi özünün yeni inkişaf dövrünü yaşayır.

Eyni zamanda, Prezident İlham Əliyevin şaxələndirilmiş iqtisadiyyat siyasəti ölkəmizdə turizm sektorunun gəlirli sahələrdən birinə çevrilməsi ilə nəticələnmişdir. Azərbaycan Respublikasının Turizm Dövlət Agentliyinin yaradılması və turizm sektorunun yenidən qurulması bu sahəni gəlir gətirən istiqamətlərdən birinə çevirmişdir. Nəticədə, 2019-cu ildə üç milyona yaxın xarici vətəndaş Azərbaycana gəlmişdir. Bu, əldə olunmuş iqtisadi gəlirlərdən başqa, həm də ölkəmizin dünyada tanıdılması baxımından da, böyük əhəmiyyətə malikdir.

Prezident İlham Əliyevin şaxələndirilmiş iqtisadi inkişaf modelində aqrar sektorun böyük payı vardır. Son illər bu istiqamətdə keçirilmiş islahatlar, sərf olunmuş məqsədyönlü yatırımlar, icrasına başlanılmış proqramlar aqrar sektorun da yenidən qurulmasında və inkişaf etdirilməsində mühüm rol oynamışdır. Dövlət başçısının ölkəmizin potensialını və əkinçilik ənənələrini nəzərə almaqla, müəyyən etdiyi sahələr üzrə ixtisaslaşdırılmış aqrar inkişaf proqramları respublikamızda pambıqçılıq, ipəkçilik, tütünçülük və çayçılıq kimi unudulmaqda olan sahələrə yeni həyat gətirmişdir.

Bu yaxınlarda Möhtərəm Prezidentin keçirdiyi kənd təsərrüfatı müşavirəsində bəyan etdiyi kimi, pambıqçılıq artıq gəlir verən əsas əkinçilik sahələrindən birinə çevrilmişdir: "Biz Azərbaycanda pambıqçılığı dirçəltmişik, bunu çoxgəlirli sahəyə çevirmişik. Pambıqçılıqla məşğul olan regionlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımıza qoyulan vəzifələrə nail olmuşuq".

Ardı Səh. 11

# İLHAM ƏLİYEV STRATEGİYASI - XALQI ZƏFƏRLƏRƏ APARAN QƏLƏBƏ YOLU

Əvvəli-Səh-10

Eyni sözləri kənd təsərrüfatı sahəsindəki digər proqramların icrası sahələrində də əldə olunan nəticələr haqqında demək mümkündür. Dövlət büdcəsinin formalaşdırılmasında aqrar sektorun rolunun artması şaxələndirilmiş iqtisadiyyat siyasətinin mühüm nəticəsidir.

Beləliklə, Prezident İlham Əliyevin "iqtisadi müstəqillik siyasi müstəqilliyin əsaslarını təşkil edir" formatında ifadə olunmuş strategiyası real iqtisadi inkişafa nail olmaqla, özünü təsdiq etmişdir. Yeni Azərbaycanın güclü dövlətə çevrilməsində iqtisadi siyasətin real nəticələri xüsusi çəkiyə malik olmuşdur.

### İlham Əliyev- islahatın aparıcı lideri!

Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi də İlham Əliyevin əfsanəni gerçəkliyə çevirmək istedadının real göstəricilərindən biridir. Artıq dördüncü mərhələsi keçirilməkdə olan regionların inkişafı üzrə Dövlət Proqrammı, geniş mənada, ölkənin bütün coğrafiyasını inkişaf etdirməyin möhkəm siyasi-iqtisadi əsaslarına çevrilmişdir. Bu, ölkəmizdə kənddən şəhərə doğru axının qarşısını almış, işsizliyin aradan qaldırılmasına yol açmışdır. Regionlarda məhsuldar qüvvələrin proporsional qaydada yerləşdirilməsi və səmərəli fəaliyyətinin təşkili ölkənin ən müxtəlif yeraltı və yerüstü sərvətlərinin üzə çıxarılmasına, istismar edilməsinə, fayda verməsinə və gəlir gətirməsinə təkan vermişdir.

Hazırda ölkəmizdə elə iqtisadi rayon göstərmək mümkün deyildir ki, orada böyük inkişafın şahidi olmayasan. Dünyanın bir çox inkişaf etmiş ölkələrində inkişaf daha çox böyük şəhərlər və onların ətrafındakı kəndlərdə cəmləşdiyi halda, Azərbaycanda ucqar dağ kəndlərindən tutmuş, ölkəmizin fərqli imkanlara malik olan bütün regionlarında, Bakıətrafı kəndlərdə də hərtərəfli böyük inkişaf, nəticə etibarilə, müasir və yeniləşmiş inkişafın simasını müəyyən etmişdir.

Göründüyü kimi, regionları inkişaf etdirmək, bütövlükdə, Azərbaycanı inkişaf etdirmək üçün Prezident İlham Əliyev tərəfindən kəşf edilmiş qızıl açardır. İqtisadi inkişafın yüksək səviyyəsi, təbii olaraq, ölkəmizdə inkişaf etmiş elm, təhsil və mədəniyyət əsasında formalaşdırılmış yeni bir cəmiyyətin bərqərar olmasını şərtləndirmişdir.

### Elmin hamisi

Müstəqillik illərində Azərbaycan elminin keçdiyi məsuliyyətli və şərəfli yol Prezident İlham Əliyevin elm siyasətinin gerçək ifadəsidir.

XXI əsrin əvvəllərində böhran dövrünü tam başa vurmamış Azərbaycan Milli Elmlər Akademiyasında az sonra islahatlar həyata keçirilməklə, elmi mühitə yeni nəfəs gətirilmişdir. Akademiyanın 2005-ci ildə keçirilmiş 60 illik və 2015-ci ildə keçirilmiş 70 illik yubileylərində ölkə Prezidentinin dərin məzmunlu nitqləri, akademiyaya səfərləri zamanı verdiyi tapşırıqlar və tövsiyələr ölkəmizin elmi ziyalılarını birləşdirən bu akademik qurumda fundamental tədqiqatlarla yanaşı, tətbiqi elmlərin də inkişafına geniş yol açmışdır.



Prezident İlham Əliyevin Azərbaycan Milli Elmlər Akademiyasında Yüksək Texnologiyalar Parkının yaradılması və inkişaf etdirilməsi sahəsində həyata keçirilməsinə dəstək verdiyi digər tədbirlər, elmdə sahibkarlıq və innovasiya mühitinin formalaşdırılmasında həlledici addımlar olmuşdur. Hazırda AMEA-nın Yüksək Texnologiyalar Parkında və Təcrübə Sənaye Zavodunda rəqabətədavamlı məhsulların istehsalı, müdafiə qabiliyyətimizi inkişaf etdirməyə xidmət göstərən avadanlıqların ixtira edilməsi Azərbaycan elmi mühitinin yeni və gerçək hadisələridir. Ölkə elminin beynəlxalq əlaqələrinin böyük sürətlə genişləndirilməsi də Prezident İlham Əliyev siyasətinin işığında baş verən gerçəkliklərdir.

Eyni zamanda, təhsil sahəsindəki böyük inkişaf da ölkə rəhbərimizin bu sahə üzrə müəyyən etdiyi inkişaf strategiyasının gerçək nəticəsidir. Ölkəmizdə beynəlxalq rəqabətədavamlı təhsil səviyyəsinə çatmaq üçün həyata keçirilən kompleks tədbirlər müstəqillik dövrünün yeni təhsil səviyyəsinə gəlib çatmasına imkan yaratmışdır.

Prezident İlham Əliyevin dövlətçilik siyasətində mədəniyyətlərarası dialoq və dinlərarası harmoniya məsələləri də mühüm yer tutur. Daha doğrusu, Prezident İlham Əliyev cəmiyyətin siyasi-mənəvi bütövlüyünə və inkişafına nail olmaq üçün mədəniyyətlərarası dialoq və dinlərarası harmoniya faktorundan məqsədyönlü şəkildə istifadə etməyin özünəməxsus modelini formalaşdırmışdır. Bu düşünülmüş siyasət ölkəmizdə uğurla həyata keçirilir və özünün real bəhrələrini verir.

İlk növbədə, onu qeyd etmək lazımdır ki, Prezident milli mədəniyyətin inkişaf etdirilməsi üçün ölkəmizdə hər cür şərait yaratmışdır. İkincisi isə Azərbaycan mədəniyyətinin dünyada tanıdılması, UNESKO səviyyəsində qəbul edilməsinə, qorunmasına nail olunması Prezident İlham Əliyevin adı və fəaliyyəti ilə üzvi surətdə bağlıdır. Dünyada Azərbaycan qədər UNESKO siyahılarında maddi və mənəvi irsi geniş yer tutan ölkələr göstərmək çətindir. Bu, ölkəmizin zəngin maddi-mənəvi irsinin inkişaf etdirilməsinə və dünyada tanıdılmasına Prezident İlham Əliyevin göstərdiyi böyük diqqətin və qayğının əməli ifadəsidir.

Məhz Prezident İlham Əliyevin ardıcıl və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, müstəqil Azərbaycan Respublikası mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqun dünyada ən mühüm mərkəzlərindən birinə çevrilmişdir.

Bundan başqa, Azərbaycanda mədəniyyətlərarası dialoqla dinlərarası harmoniya arasında böyük körpü yaradılmışdır. Prezident İlham Əliyevin dövlətçilik təlimində dinlərarası dialoqla paralel şəkildə aparılan və biri digərini tamamlayan tolerantlıq siyasəti mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin dini dəyərlərə mənəvi mədəniyyətin aparıcı istiqamətlərindən biri kimi baxması, öz növbəsində, multikulturalizm və tolerantlıq təlimini meydana çıxarmışdır.

Dövlət başçısının bəyan etdiyi aşağıdakı sözlər ölkəmizdə aparılan multikulturalizm və tolerantlıq siyasətinin ana tezislərindən ibarətdir: "Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və ləyaqət şəraitində bir ailə kimi yaşamışlar". Dövlət səviyyəsində məqsədyönlü şəkildə aparılan bu müdrik siyasət bu gün respublikamızda möhkəm ictimai-siyasi sabitliyin yaradılmasına, çoxmillətli mədəniyyətin inkişaf etdirilməsinə və nümunəvi birgəyaşayışa öz töhfələrini verməkdədir.

Azərbaycanda multikulturalizm - mədəniyyətlərarası dialoqun, tolerantlıq isə dinlərarası harmoniyanın qızıl açarı kimi düşünülmüşdür. Mədəniyyət Nazirliyi ilə paralel şəkildə Qafqaz Müsəlmanları İdarəsinin və Dini İşlər üzrə Dövlət Komitəsinin də multikulturalizm siyasətinə dəstək verən tədbirlər həyata keçirməsi ölkəmizdə multikulturalizm və tolerantlıq anlayışlarının nə qədər vəhdət təşkil etdiyini təsəvvür etməyə imkan yaradır.

Fikrimizcə, Azərbaycan məscidlərində vəhdət namazlarının qılınması dini harmoniyanın ən böyük göstəricilərindən biridir. Vəhdət namazı mərasimləri ölkə Prezidentinin milli-mənəvi bütövlük siyasətinə din xadimlərimizin cavabıdır. Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri, Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə həyata keçirilən vəhdət namazları İlham Əliyevin tolerantlıq siyasətinin dini dairələrdəki təcəssümüdür.

Qətiyyətlə demək olar ki, bu gün Prezident İlham Əliyev planetimizdə və ölkədə milli-mənəvi bütövlük, ictimai-siyasi sabitlik yaratmaq üçün mədəniyyət və din faktorundan bacarıqla istifadə etməyin modelini yaratmışdır.

Aparılan böyük siyasətin nəticəsidir ki, Azərbaycanda möhkəm mənəvi birlik və davamlı ictimai-siyasi sabitlik nəticəsində, böyük inkişafa nail olunmuşdur. Buna görə də, Prezident İlham Əliyevin bu müdrik siyasəti dünyada böyük əks-səda doğurur, öyrənilir və yüksək qiymətləndirilir.

Qeyd etməyi özümə borc bilirəm ki, ölkəmizin alimləri, AMEA-nın ayrı-ayrı institutları Prezident İlham Əliyevin mədəniyyət siyasətini, mədəniyyətlər və dinlərarası dialoq çağırışlarını, tolerantlıq təlimini dərindən öyrənib təbliğ etməyi özlərinə şərəfli borc hesab edirlər. Azərbaycan alimlərinin, AMEA-nın ayrı-ayrı institutlarının əməkdaşlarının son illərdə multikulturalizm və tolerantlıq fəlsəfəsindən yazıb nəşr etdirdikləri kitablardan və məqalələrdən mükəmməl bir kitabxana yaratmaq mümkündür. Sözün əsl mənasında, hazırda Azərbaycan multikulturalizm və tolerantlıq araşdırmalarının əsas mərkəzlərindən biri kimi qəbul olunur.

Azərbaycan alimləri yazdıqları tədqiqat əsərləri ilə Prezident İlham Əliyevin mədəniyyətlərarası dialoq və dinlərarası harmoniya siyasətinin mahiyyətini elmi əsaslarla müəyyən edərək, xalqa çatdırırlar. Bu isə Azərbaycan alimlərinin Prezident İlham Əliyev və müstəqil dövlətçiliyimiz qarşısındakı borcudur.

Bütövlükdə, Azərbaycan xalqı kimi, ölkəmizin ziyalıları, alimləri, müəllimləri və yazıçıları Prezident İlham Əliyevin daxili və xarici siyasətini, inkişaf strategiyasını ürəkdən bəyənir və müdafiə edirlər. Biz möhkəm şəkildə inanırıq ki, son vaxtlar dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən struktur və kadr islahatları Azərbaycan Respublikasını daha böyük inkişaf yoluna çatdırmağa xidmət edən qətiyyətli və düşünülmüş addımlardır.

Bu məqsədyönlü islahatlar inkişafın yeni mərhələsinə çatmaq üçün yeni enerjiyə və daxili potensialın yenidən hərəkətə gətirilməsinə ciddi ehtiyacın ifadəsidir. Heç bir şübhə ola bilməz ki, bu vaxta qədərki dövrdə ölkəmizə bacarıqla rəhbərlik edərək, xalqımıza böyük nailiyyətlər qazandırmış Prezident İlham Əliyev yeni islahatlar dalğası ilə daha fərqli gerçəkliklərə imza atacaqdır. İlham Əliyev gerçəkliyi - keçilmiş yolun tamamlanmış yekunu, müasir dövrün möhtəşəm reallıqları və sabahın gerçək təminatı deməkdir.

İlham Əliyev gerçəkliyi - yeniləşməkdə və inkişaf etməkdə davam edən müasir Azərbaycandır!

Müstəqil Azərbaycan Respublikası özünün qüdrətli Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz və xalqımız üçün daha böyük gələcək vəd edən işıqlı sabahlara doğru inamla irəli getməkdə davam edir. Dövlət rəhbəri ilə xalqın sarsılmaz birliyi ölkəmizə yeni-yeni zəfərlər qazandıracaqdır. Zəfərlərdən-zəfərlərə doğru yürüşün gerçəkliyini Prezident İlham Əliyev ardıcıl və məqsədyönlü siyasəti və yorulmaz fəaliyyəti ilə isbat etmişdir.

# Xankəndinin işğalından 28 il ötür

## *Kərkicahanın işğal edilməsi ilə Xankəndinin işğalı başa çatdırılıb*

***Bu gün Azərbaycanın Xankəndi şəhəri və ətraf ərazilər üçün mühüm strateji əhəmiyyətə malik olan Kərkicahan qəsəbəsinin ermənilər tərəfindən işğalından 28 il ötür. 1991-ci il dekabrın 28-də Kərkicahan qəsəbəsinin işğalı ilə Xankəndi və ətraf ərazilərin işğalı başa çatdırılıb. İşğal gününə qədər Xankəndi ərazi vahidliyinin tərkib hissəsi olan Kərkicahanın müdafiəsi, kənd sakinlərindən yerli özünümüdafiə dəstələrindən, yeni yaranmış olan polis və Milli Ordunun bir qrup əsgərləri tərəfindən təşkil olunub.***

Xankəndi istiqamətindən Kərkicahana doğru hücuma keçən erməni silahlılarının istifadəsində olan hərbi texnika və ağır silahların qarşısında bu cür müdafiə dəstələri, son nəticədə, geri çəkilməyə məcbur olublar. Özünümüdafiə dəstələrinin, bir müddət erməni silahlılarının hücumlarının qarşısını almaları nəticəsində, dinc əhali qəsəbədən çıxarılıb. İşğaldan əvvəl əhali 350 ailə təsərrüfatı nəzdində 1796 nəfər təşkil edib. İki orta məktəb, bir uşaq bağçası, bir kitabxana, bir klub, bir ATS, on dükan, bir tibb ambulatoriyası, müxtəlif istehsal sahələrinə aid olan beş sex və digər məişət-iaşə obyektləri dağıdılıb. Kərkicahan və ətraf ərazilər uğrunda gedən döyüşlərdə 34 nəfər şəhid olub, 150 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıblar. Şəhid olanlardan 3 nəfər qadın, 2 nəfər isə azyaşlı uşaq olub.

Ölkəmiz təcavüzkar Ermənistanın işğalçılıq siyasəti nəticəsində, 1 milyondan çox soydaşlarımız öz doğma yurd-yuvalarından qaçqın düşsələr də, Azərbaycan dövləti bu insanları ağrı-acıları ilə tək qoymadı, onları düşdükləri ağır vəziyyətdən qurtarmaq üçün tədbirlər həyata keçirməyə başladı. Bütün qaçqın və məcburi köçkünlərin problemini ölkənin əsas problemi elan edən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlərə start verildi, çadır şəhərciklərinin ləğvinə başlanıldı, qaçqın və məcburi köçkünlər üçün hər cür şəraiti olan yeni qəsəbələr salındı. Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu sahədə tədbirlər həyata keçirilir.




Cənab İlham Əliyevin Prezident kimi imzaladığı ilk sərəncamlarından biri 2004-cü ildə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı ilə bağlıdır. Dövlət Proqramına uyğun olaraq, qaçqın və məcburi köçkünlərin sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatına uyğun olan lazımi tədbirlər mərhələlərlə həyata keçirilir. Təqdirəlayiq haldır ki, bu gün ölkədəki bütün qaçqın və məcburi köçkünlər dövlətin təminatındadır, onların problemlərinin həlli isə, dövlət rəhbərliyinin gündəlik diqqət mərkəzindədir. Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirən Prezident İlham Əliyev tərəfindən fərman və sərəncamlar imzalanıb. Ötən ilin dekabrında Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verildi. Bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir.

Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. İndiyə qədər bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də, 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın Sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin, Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi ilə başa çatdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə icra olunan işlərin nəticəsini sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar da öz həyatlarında hiss edirlər. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərin mənzil-məişət məsələlərinin həlli daim diqqət mərkəzindədir. Bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması və onların avtomobillə təmin olunmaları üçün ardıcıl tədbirlər görülür. 1997-ci ildən 2018-ci ilədək Qarabağ müharibəsi əlillərinə 4597, şəhid ailələrinə 1582, İkinci Dünya müharibəsi, Çernobıl və müharibə əlillərinə bərabər tutulan digər vətəndaşlara isə, 475 mənzil və fərdi ev verilib. Qarabağ müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər, 1998-2018-ci illər ərzində, 6155 avtomobillə təmin edilib. Bu qəbildən olan vətəndaşlara ilin əvvəlindən bəri 700 mənzil və fərdi ev verilib. İlin sonunadək isə, 234 mənzil və fərdi evin təqdim olunması planlaşdırılır. Gələn il də bu istiqamətdə layihələr davam edəcək.

Bu gün məcburi köçkünlər dövlət qayğısı ilə əhatə olunublar, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində də mühüm tədbirlər görülüb. Lakin bu diqqət onların doğma ocaqlarına qayıtmaq arzularını unutdurmayıb, öz dədə-baba yurdlarına qayıtmaq ümidlərini daha da artırıb. Onlar ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğal olunan torpaqlarımızın geri qaytarılacağına inanır və qələbə uğrunda savaşa hər an hazırdırlar.

**ZÜMRÜD BAYRAMOVA**

# “Nar”dan Yeni il səfərləri üçün sərfəli rominq paketləri

Ölkənin ən gənc mobil operatoru “Nar”, Yeni il ərəfəsində səfərə çıxan abunəçiləri üçün sərfəli rominq paketləri təklif edir. Mobil operatorun rominq paketləri müştərilərin tələblərinə uyğun olaraq səsli zəng, internet və “WhatsApp”da pulsuz yazışma imkanı verir. “Nar” istifadəçiləri Türkiyə, Rusiya, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri kimi populyar istiqamətlər də daxil olmaqla, 45 ölkədə müvafiq romiq paketinə qoşularaq öz yaxınları ilə daim ünsiyyətdə qala bilərlər.




Səyahət zamanı rahat ünsiyyətdən yararlanmaq üçün abunəçilər ehtiyaclarına uyğun olaraq 4 rominq paketindən birini seçə bilərlər. “Roaming 9” paketi abunəçilərə 500 MB internet, “Roaming 15” paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, “Roaming 18” paketi 1 GB internet, “Roaming 28” paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki, “Roaming 18” və “Roaming 28” paketlərində “WhatsApp” yazışmaları tamamilə pulsuzdur. Yeni bu trafik rominq internet paketindən çıxılmır.

Qeyd edək ki, səyahət zamanı “Nar” nömrələrində rominqi aktivləşdirənlərin sayı ötən illə müqayisədə 2019-cu ilin yanvar-noyabr aylarında 25%, rominqdə istifadə olunan internet trafikinin həcmi isə 68% artıb. Ümumilikdə, “Nar” dünyanın 117 ölkəsində abunəçilərinə keyfiyyətli rominq xidmətləri təklif edir. Daha ətraflı məlumatı www.nar.az səhifəsindən əldə etmək olar.

“Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. “Nar” ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar” şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## AZAL bayram günlərində gücləndirilmiş iş rejimində çalışacaq

“Azərbaycan Hava Yolları” bayram günlərində gücləndirilmiş iş rejimində çalışacaq. Bu barədə SİA-ya “Azərbaycan Hava Yolları” (AZAL) QSC-nin mətbuat xidmətinin rəhbəri Paşa Kəsəmənski bildirib. Onun sözlərinə görə, qurumun bütün heyəti gücləndirilmiş rejimdə işləyəcək: “Azərbaycan Hava Yolları” QSC-nin sərnişinlərə, hava gəmilərinə və yüklərə xidmət göstərən bütün xidmət və təşkilatların növbələrlə fasiləsiz çalışdığını nəzərə alaraq Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə standart iş rejimi daha da gücləndiriləcək və sərnişinlərə, baqajlara, yüklərə, həmçinin hava gəmilərinə lazımi xidmətlər yüksək səviyyədə göstəriləcək”.

## Gələn il KOBİA-nın nümayəndələri Qətərə gedəcəklər

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Qətərin KOB sahəsində fəaliyyət göstərən qurumları arasında əlaqələrin inkişafı, müvafiq sahədə əldə olunmuş nailiyyətlərlə tanışlıq və təcrübə mübadiləsi məqsədilə agentliyin nümayəndələrinin 2020-ci ildə Qətərə səfəri planlaşdırılır. AZƏRTAC xəbər verir ki, bu barədə KOBİA-nın məlumatında bildirilir. Eyni zamanda, gələn il Azərbaycan Respublikası Hökuməti ilə Qətər Dövləti Hökuməti arasında Birgə İqtisadi, Ticarət və Texniki Komissiyanın növbəti iclası çərçivəsində biznes forumun keçirilməsi, KOB-larla bağlı Qətərdə təşkil olunacaq beynəlxalq əhəmiyyətli tədbirlərdə Azərbaycan sahibkarlarının iştirakı nəzərdə tutulur.

# Əli Kərimli özü-özünə necə quyu qazdı?

## *Yaxud "Milli Şura"-AXCP cütlüyü cəmiyyəti "boykot"a səsləməklə, əslində, öz uğursuzluqlarını ortaya qoyur*

***Bəlli olduğu kimi, 2020-ci il fevralın 9-da keçiriləcək parlament seçkiləri ilə əlaqədar siyasi qurumlar fəal şəkildə prosesə qoşulurlar. Artıq məlumdur ki, Yeni Azərbaycan Partiyasının İdarə Heyəti dekabrın 10-da seçkilərdə partiyanın iştirakı ilə bağlı qərar qəbul edib və səlahiyyətli nümayəndələri təyin olunub. Digər tərəfdən, bir neçə müxalifət partiyası da parlament seçkilərində iştirak edəcəyini bəyan edib. O cümlədən, radikal mövqedən çıxış edən Müsavat və "ReAL" partiyaları seçkilərdə iştirak edəcəklərini rəsmən açıqlayıblar. Bununla bağlı hazırlıqlara da start veriblər.***

### Kərimlinin "boykot" qərarının rəhbərlik etdiyi partiyanın bütün üzvləri tərəfindən dəstəklənib-dəstəklənmədiyi barədə sübutlar da yoxdur

Cəmiyyət üçün ən təəccüblüsü odur ki, siyasi partiyaların böyük hissəsi, hətta ənənəvi olaraq, indiyədək boykot taktikası ilə hərəkət etmiş bəzi partiyalar parlament seçkilərində iştirakla bağlı qərar qəbul etdikləri halda, "Milli Şura"-AXCP cütlüyü cəmiyyəti boykota səsləməklə, əslində, öz uğursuzluqlarını ortaya qoyurlar. Əslində, Kərimlinin boykot qərarının rəhbərlik etdiyi partiyanın bütün üzvləri tərəfindən dəstəklənib-dəstəklənmədiyi barədə sübutlar da yoxdur. Daha dəqiq desək, axecepeçilərin rəyi soruşulmadan, bir şəxsin iddiaları bütün partiya mənsublarının mövqeyi kimi təqdim edilir. Ancaq digər fakt budur ki, AXCP-də təmsil olunan bir çoxları Ə.Kərimlinin qərarına qarşı çıxırlar və seçkilərdən imtinanı doğru hesab etmirlər.



Yeri gəlmişkən, son vaxtlar Avropada cinayətkar mühacir biznesində "Milli Şura" subyektlərinin də adının çəkilməsi bu partiya rəhbərinin ölkədə, hətta gələcəkdə də siyasi nüfuzunu azacıq bərpa etmək şanslarını, tam olaraq, heçə endirdi. Hazırda əksər siyasi analitiklərin fikrincə, bu seçkidən kənarda qalan siyasi partiyaların, nəinki özlərini bərpa etmək, hətta mövcudluq şansları tamamilə itirilə bilər və bu reqallıq, artıq onu sübut edir.

### Əgər onun sosial şəbəkələrdə, iddia etdiyi kimi, "yüz minlərlə" tərəfdarı varsa, bu insanları seçki hüququndan məhrum etmək haqqını ona heç kim verməyib

Daimi boykot siyasəti yürüdən siyasi partiyalar ölkənin siyasi sistemindən özlərini sürətlə çıxdaş edirlər. Cəmiyyət də bunu qəbul etmir və bundan sonra da etməyəcək. Bu faktor isə, bir daha sübut edir ki, sonrakı mərhələlərin seçki-siyasi proseslərində də boykotçu radikallara yer olmayacaq. Ə.Kərimli siyasi sistemdə özünü tam inkar və yoxetmə yolundadır və bu seçimin bütün məsuliyyəti söz yox ki, onun öz üzərindədir. Əgər onun sosial şəbəkələrdə, iddia etdiyi kimi, "yüz minlərlə" tərəfdarı varsa, bu insanları seçki hüququndan məhrum etmək haqqını ona heç kim verməyib. Belə ki, bu, həm də belə nəticəyə gəlməyə zəmin yaradır ki, AXCP sədri özünə çox dərin quyu qazıb və bu quyuya da özü düşüb. By quyudan çıxmaq isə, artıq ona müyəssər olmayacaq.

**_Rövşən RƏSULOV_**

## Ermənistanda jurnalistlər hücuma məruz qalıb



Ermənistanda "Kentron" televiziya kanalının əməkdaşları hücuma məruz qalıb. SİA erməni mətbuatına istinadən xəbər verir ki, hadisə çəkiliş zamanı baş verib. Belə ki, "Kentron" televiziyasının jurnalisti və operatoru peşə vəzifələrini yerinə yetirmək üçün Ovtaşat kəndindəki balıq fermalarından birinə gəliblər. Balıq yetişdirmə təsərrüfatının ərazisinə daxil olanda bir nəfər onlara yaxınlaşıb və çəkilişə mane olmağa başlayıb. Bir müddət sonra digər şəxslər də hücuma keçiblər. Hadisə zamanı kamera zədələnib. İnsidentlə bağlı polisə müraciət edilib.



## Kefkom Kardaşyan Ermənistanın prezidenti ola bilər

**İLHAM**

Yaşadığımız dünyamızda elə insanlar var ki, onların ağlında, savadında, davranışında və düşüncələrində problemlər var. Hətta həmin məxluqların fəaliyyəti, TV-lərdə və ya qəzetlərdəki şəkilləri çoxlarında ikrah hissi yaradır. Bu xüsusiyyətlərə malik məxluqlarda bir qədər də müştəbehlik, özündən razılıq xarakteri olduqda, daha böyük narahatlıq yaradırlar. Amma bir məsələ də var ki, sadaladığım bu xüsusiyyətlərə və xarakterə malik məxluqlar çox zaman müxtəlif vasitə və üsullarla yuxarı başda oturmaq və ya cəmiyyətlərin ulduzuna çevrilmək imkanı qazanırlar. Fəlakət və faciə də bundan sonra başlayır. Nədən ki, bu üzdəniraq məxluqlar tutduğları mövqelərdən və əldə etdikləri imkandan yararlanmaqla, insanlığa zidd olan əməllər törədirlər. Bununla bağlı çoxsaylı faktlar və sübutlar göstərmək olar. Elə uzağa getməyək, misal olaraq, ABŞ-da yaşayan erməni axçısı Kim Kardaşyanı göstərmək olar. Bu erməni seks simvolu, həm də modeli məlum yollar və vasitələrlə şou dünyasının diqqət mərkəzinə çevrildikdən sonra Ermənistanın və erməni lobbisinin şərəfsiz və yaramaz siyasətlərinin həyata keçirilməsində bir vasitəyə çevrildi. Onun bu günkü əsas fəaliyyəti, hər fürsətdə qondarma "erməni soyqırımı"nın tanınması üçün ABŞ siyasətçiləri arasında təbliğat aparmaqdır. Biyabırçılıq olsa da, bu, bir reallıqdır ki, bəzən bəzi ABŞ senatorları, hətta Ağ Evin müəyyən isimləri Kim Kardaşyanın lobbiçilik istək və arzularına uyğun olaraq, Ermənistanın Türkiyəyə, Azərbaycana və ümumilikdə, türk dünyasına qarşı məkrli planlarının həyata keçirilməsinə çalışırlar. Hətta senatorlar Kris Humphriles və Çeki Spayein bu günlər Senatda qəbul edilən, amma Donald Tramp tərəfindən veto hüququndan istifadə etməklə, ləğv edilən "erməni soyqırımı"nın tanınması barədə qanun layihəsinin Senatda dəstəklənməsində Kim Kardaşyanın müəyyən çağırışının rolu olduğunu bildirmişlər. Hətta Çeki Spayein Donald Trampa təzyiqlərin olunması üçün Kim Kardaşyana dəstəyin artırılmasının vacibliyini söyləmişdir və demişdir: "Məncə, biz hamımız Kim Kardaşyana tvit atmalıyıq. Ciddi deyirəm və ondan xahiş etməliyik ki, prezidentin də bu addımı atması üçün bizə qoşulsun".

ABŞ-ın müəyyən qaranlıq dairələrinin erməni fahişəsinə qucaq açması və ondan dəstək umması Amerika siyasi dairələrinin nə qədər rüsvayçı və acınacaqlı durumda olduqlarını göstərir. Bu rüsvayçı durum fonunda Ermənistanın hakim elitası da 32 illik həyatında, rəsmən 32 kişi dəyişən K.Kardaşyanla iş birliyini genişləndirir. Nikol Paşinyanın bu ilin oktyabrında K.Kardaşyanın Ermənistana növbəti səfərində onunla selfi çəkdirib paylaşması ciddi siyasətçilərdə gülüş doğurdu. Erməni hakimiyyətinin zəif damarına bələd olan K.Kardaşyan yüksək vəzifələrə öz nəsli-nəcabətindən olan insanları təyin etdirir. Misal olaraq təhsil, kömrük və vergi nazirlərinin K.Kardaşyanın tör-töküntüdən ibarət olan nəslinin davamçılarının təyin olunmasını göstərmək olar. Hətta Ermənistanda peysər prezident Armen Sarkisyanla nahar edərkən, K.Kardaşyan utanıb-çəkinmədən "Mən Ermənistan üçün çox şey edə bilərəm" deməkdən də çəkinməmişdir. Düzdür, bədbəxt və yazıq gündə olan bəzi sadəlövh ermənilər seks-modelin fikirlərini qondarma "erməni soyqırımı"nın ABŞ-da tanıdılması və ya Ermənistana dilənçi ianələrin yığılması üçün cəhdlərini gücləndirəcəyi kimi başa düşmüşdür. Ancaq bu günlər məlum olub ki, bu üzdəniraq məxluq Ermənistanın prezidenti olmaq iddiasındadır. Araşdırmalar və aparılan sorğular da göstərir ki, bu gün Ermənistanda ən populyar şəxs K.Kardaşyandır. Aşağılardan tutmuş yuxarılara qədər hər kəs K.Kardaşyanla fəxr edir, qürur duyur, onun rəhbərliyi altında çalışmaq, işləmək və yaşamaq istəyində olduqlarını bildirirlər. Olsun, Ermənistan onsuz da oyuncaq dövlətdir, həm də terrorçuların, uşaq qatillərinin hələ ki, meydan suladığı ərazi vahididir. Əgər uşaq qatilləri, Xocalı soyqırımının təşkilatçıları Serj Sarkisyan, Robert Koçaryan Ermənistanın prezidenti olurlarsa və ya ağlında müəyyən problemlərin olduğu sübuta yetirilən Paşinyan Ermənistanın baş naziri seçilirsə, niyə də ki, gecəsi 5-3 ABŞ dollarına tüfeyli həyat tərzi keçirən fahişələr nəslinin nümayəndəsi K.Kardaşyan Ermənistanın prezidenti olmasın? Söz yox ki, əgər K.Kardaşyan Ermənistanın prezidenti olsa, bu ölkə mübahisəsiz dünyanın seks mərkəzinə çevriləcək. Çünki Azərbaycanda el məsəlidir, "atı atın yanına bağlasan, həmrəng olmasa da, həmxasiyyət olar". K.Kardaşyan da ətrafına özü kimi sözəbaxan, çağırışlara cavab verən, telefon zənglərinə, vatçap yazışmalarına müsbət münasibət bildirən "siyasətçilər" yığacaq. Yəqin ki, bundan sonra müəyyən problemlər topsuz-tüfəngsiz öz həllini tapacaq.

# AXCP və "Milli Şura" dağılma prosesinə adlayırlar

***"Milli Şura" və AXCP bələdiyyə seçkilərini "boykot" etmək çağırışı ilə çıxış etsələr də, xalq onların özlərini "boykot" etdi. Azərbaycanda dekabrın 23-də növbəti dəfə azad və demokratik seçkilər keçirildi. Söhbət etdiyimiz müsahiblərimiz müxalifətin cəmiyyətdə heç bir nüfuzu və mövqeyinin olmadığını, bu baxımdan, onların məkrli planlarının reallaşmasının mümükünsüz olduğunu bildirdilər.***

### Müasir Müsavat partiyasının sədri Hafiz Hacıyev: "O müxalif gədələri çox şişirtmək olmaz"



- Dekabrın 23-də azad və xalqın iradəsi əsasında bələdiyyə seçkiləri keçirildi və yekunları da bəllidir. Bu "Milli Şura" - juliklər şurası, bu gədələr seçkiləri "boykot" çağırışı ilə çıxış etdi amma seçkilər baş tutdu. Onlar özləri-özlərini "boykot" etdilər. Küçə uşağı, Amerikanın agentura şəbəkəsinin əməkdaşı, ermənilərin bir bığ qoyanı Həsənov Cəmil seçkilərə qatılmadı deyə, biz bütün gün oturub ağlayası deyilik ki! Seçkilər keçirildi, nəticəsi də bəllidir, kimlər də seçilibsə, biz onları təbrik edirik. Ümumiyyətlə, hər dəfə seçki öncəsi adları çəkilən qüvvələrin bu cür anormal hərəkətlərə əl atması, onlara "ağalarından" verilən növbəti tapşırıqdır və bu da, bir daha təsdiq edir ki, onların quyruqları başqa adamların əlindədir. Bir sözlə, adları çəkilən şəxslər müxalifət adı ilə xarici qüvvələr tərəfindən çox yaxşı dolanırlar. Ona görə də, o müxalif gədələri çox şişirtmək olmaz, biz onların adını çəkdikcə, onlara da xaricdən pul verilir. Əslində, onları eşidən və hay-küylərinə əhəmiyyət verən yoxdur.

### Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli: "AXCP və "Milli Şura"nın xalq arasında sosial dayağı yoxdur"



- Nə AXCP-nin, nə də "Milli Şura"nın hansısa seçkilərdə iştirak edib qalib gəlmək şansı yoxdur. Çünki seçkinin taleyini seçici həll edir və seçkidə iştirak seçici arasında hörmət istəyir. AXCP və "Milli Şura"nın isə xalq arasında sosial dayağı yoxdur. Bunu isbat etmək çətin deyil: bir siyasi qüvvə 26 il müddətində, fasiləsiz olaraq, bütün seçkiləri uduzursa və müxalifətdə qalırsa, deməli, sosial bazası və seçicinin ona inamı yoxdur. Belə durumda hər iki siyasi qurumun "boykot" yolu seçməkdən başqa çarəsi qalmır. Fikrimcə, bu siyasi qurumların son illərdə keçirilən bütün seçkilərdə "boykot" yolu tutmalarının səbəbi budur. Məsələ ondadır ki, xalq, seçicilər onların "boykot" qərarını da ciddiyə almırlar. Builki bələdiyyə seçkiləri öz aktivliyi ilə yadda qaldı. Hətta bizim bir neçə jurnalist həmkarlarımız da seçkilərə qatılaraq, qalib oldular. Prezident İlham Əliyevin başlatdığı islahat dalğası və şəffaflaşdırma prosesi insanlarda inamı daha da gücləndirib. Xalq dövlətə, dövlət başçısına və seçkilərə inanır və onu dəstəkləyir. Dəstək verməyin ən normal yolu isə seçkidən keçir. Xalq seçkiyə gəldi, yetərsay oldu və seçkilər uğurla başa çatdı. Bundan kənarda nə baş verirsə, əhəmiyyəti yoxdur.

**_GÜLYANƏ_**

# 2020-ci il - müxalifətin siyasi ölüm ili

## *Dağıdıcıların aqibəti daha öncədən bəlli idi*

***Uğursuz yolun yolçuları olan dağıdıcı müxaliflərin yola salacağımız 2019-cu ili də, uğursuzluqla başa vuracaqları artıq faktdır. Cari il ərzində, bu düşərgədə fəaliyyət göstərən AXCP, Müsavat və s. siyasi təşkilatlar nə xalqdan, nə də xidmət etdikləri xarici təşkilatlardan dəstək almağı bacarmadılar. Əksinə, partiyalararası və partiyadaxili qarşıdurmalar, ziddiyyətlər pik həddinə çatdı, özlərini "ana müxalifətin liderləri" qismində zorla ictimai rəyə sırımağa çalışan psevdomüxalifətçilər didişmələrin və qarşılıqlı ittihamların sayını artırdılar. Nəticəsi nə oldu? Xalqın nifrəti, özlərinin daxilində qurşaqdan aşığı söyüş və təhqirlər. Belə də olmalı idi. Və...***



**"Ölü" müxalifət növbəti ilə də satqınlıqla daxil olmaqdadır**

Ən gülünc məqam isə, siyasi gündəmdə qalmaq aksiyalara əl atmaları idi. Ancaq bu planları da uğursuzluğa düçar olmaqdadır. Xüsusilə, "Milli Şura" və Müsavat 2019-cu ildə icazəli mitinq keçirsələr də, bu mitinqlər kütləviliyin alınmaması üzündən, fiaskoya uğramaqdadır. Ancaq digər gülünc və düşünülməmiş məqam ondadır ki, bütün bu biabırçılıqlardan sonra, yenə də, meymunluq oyunlarından əl çəkmirlər. Məqsəd də bəllidir. Meymunluq və satqınçılıq edənlər də bəllidir. Qranta satılan Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Gültəkin Hacıbəyli, Xədicə İsmayıl, Leyla Yunus və... və bu kimi əxlaqsız və mənəviyyatsızlar istər seçkilər, istərsə də ölkəmizdə keçirilən mötəbər beynəlxalq tədbirlər ərəfəsi ölkədə siyasi sabitliyin pozulmasına, əldə olunan uğurlarımıza böhtan atmaqla erməni nökərçiliyinə "sadiq" olduqlarını nümayiş etdirmək istəyiblər. Ancaq hər şey tam əksinə olub. Elə dekabrın 23-də keçirilən bələdiyyə seçkilərində olduğu kimi. Hələ həyasızlığın son dərəcəsi olan Ə.Kərimli kimi qranta satılanlar indi də başlayıblar qarşıdakı parlament seçkilərinin saxta keçirilməsi ilə bağlı sosial şəbəkələrdə iqtidarın ünvanına böhtanlar yağdırmağa ki, seçkilər saxta keçiriləcək... bax, elə buna görə də, ölü müxalifət növbəti ilə də ölüvaylıqla daxil olmağa məhkumdur.

Müxalifət düşərgəsinin fəaliyyəti ətrafında proqnozlar verən politoloq Namiq Mirinin sözlərinə görə, dağıdıcı müxalifət siyasi aktivlik göstərməməklə yanaşı, cəmiyyətlə işləməyi də kənara qoyduğu üçün, 2019-cu ildə siyasi aktivlik olmadı, müxalifət təşkilatlarının keçirdiyi aksiyalara qatılım az oldu və bu aksiyalar fiaskoya uğradı. O, qarşıdan gələn 2020-ci ildə də müxalif düşərgənin bənzər aqibətlə qarşı-qarşıya qalacağını istisna etməyib və bildirib ki, müxalifətçilər 2020-ci ilin parlament seçkiləri ili olduğu və bu səbəbdən, öz-özünə aktivlik yaranacağına, mitinqlərdə kütləviliyin olacağına ümid edəcəklərsə, yenə də fiasko qaçılmaz olacaq. "Bundan sonra keçiriləcək mitinqlərə də, partiya fəallarından başqa, heç kim qatılmayacaq" deyə qeyd edən politoloqun sözlərinə görə, 2020-ci ildə müxalifətin böyük kütlələrin qatıldığı mitinqlər keçirəcəyini söyləmək üçün hansısa əlamətlər görünmür.

Beləliklə, politoloqun fikirlərindən, belə nəticəyə gəlmək mümkündür ki, nəinki 2020-ci ildə, eləcə də, ondan öncəki illərdə də sözügedən düşərgə heç bir uğur qazanmayıb, ona görə də, növbəti illərdə də onların aqibətinin dəyişilməyəcəyini bəri başdan proqnozlaşdırmaq olar. "Bunu fəaliyyətsizlik adlandırsaq, daha doğru olardı" deyən N.Miri cəmiyyətin də bu cür müxalifəti ciddiyə almamasını doğru və qəbuledilən hesab edir.

Dağıdıcı müxalif düşərgə cəmiyyətdən dəstək ala bilmədiyi kimi, vaxtilə əlbir olduğu xarici təşkilatların da dəstəyindən məhrum olmaqdadır. Səbəb isə partiyalararası bir-birləri ilə açıq düşmənçilik mövqeyində dayanmalarıdır. N.Mirinin sözlərinə görə, düşərgədəki təşkilatlar arasında hələ də didişmə və bir-birini qəbul etməmə sindromu hökmrandır: "Bu da təbiidir. Dağıdıcı müxalifətin dağıdıcılıq "siyasəti" cəmiyyəti onlardan uzaq salır. 2019-cu ildə təşkil olunan etiraz aksiyalarında kütləviliyin olmamasının və fiaskonun səbəblərindən biri də bu amillərdir".

Göründüyü kimi, baş verənlərin, bilavasitə müxalifətyönlü insanlar tərəfindən etiraf olunması isə, əslində, reallığın tam əksidir. Bu baxımdan, artıq tam əminliklə söyləmək mümkündür ki, dağıdıcı müxalifət daha bir uğursuz ili geridə qoymaq ərəfəsindədir. Və bütün bu deyilənlər onu sübut edir ki, 2020-ci il də müxalifətin siyasi ölüm ili olacaq.

***Rəfiqə HÜSEYNOVA***

## Bayram ərəfəsində Bakı Beynəlxalq Avtovağzalı 50 mindən çox sərnişinə xidmət göstərəcək



Bakı Beynəlxalq Avtovağzal Kompleksi (BBAK) dekabrın 21-dən gücləndirilmiş iş rejimində çalışır və bu, yanvarın 5-dək davam edəcək. Bu barədə AZƏRTAC-a BBAK-ın mətbuat xidmətinin rəhbəri Pərvin Məmmədova deyib. O bildirib ki, sərnişinlər artıq indidən biletləri kassalardan və onlayn qaydada əldə etməyə başlayıblar. Biletlərin ən çox satıldığı günlər dekabrın 28, 29 və 30-dur və sərnişinlərin ən çox sıxlığı da bu tarixlərdə gözlənilir. Həmin günlər 50 mindən çox, gün ərzində isə 17-19 min arası sərnişinin daşınacağı nəzərdə tutulub. P.Məmmədova qeyd edib ki, sıxlığın proqnozlaşdırıldığı günlər ehtiyat avtobuslar ayrılacaq.

## İrandan Azərbaycana narkotik vasitə keçirən qadın saxlanılıb

Narkotik vasitələrin qanunsuz dövriyyəsi və alqı-satqısı ilə məşğul olan şəxslərə qarşı Xətai Rayon Polis İdarəsinin Cinayət axtarış şöbəsi və 36-cı polis bölməsi əməkdaşları tərəfindən növbəti əməliyyat tədbiri keçirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əldə edilən əməliyyat məlumatı əsasında paytaxt sakini İlhamə Kərimova metronun Həzi Aslanov stansiyasının yaxınlığında polislər tərəfindən saxlanılıb. Onun üzərinə baxış zamanı ümumi çəkisi 333,296 qram olan narkotik vasitə - tiryək aşkarlanaraq götürülüb.

Araşdırma zamanı İlhamə Kərimova narkotik vasitəni bir müddət əvvəl İrandan Azərbaycana bədəninin daxilində və ayaqqabısının dabanında gizlədərək gətirdiyini etiraf edib. Faktla bağlı saxlanılan şəxs barəsində Xətai Rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, əməliyyat tədbirləri davam etdirilir.



**Təhmasib Novruzov**

## Keçmişimizin bu gününə atüstü ekskurs

Ölkə başçısı son çıxışlarında yaxın keçmişimizlə bağlı baş verən hadisələrin obyektiv araşdırılmasının, yeni nəslə doğru-düzgün məlumatların çatdırılmasının vacibliyini qeyd edir. Təbii ki, dünənini öyrənməyən, onu saf-çürük etməyən, hərtərəfli təhlil edib lazımi nəticələr çıxarmayan xalq sabahını da müəyyənləşdirə, nə etməli olduğuna gərəkli qərar verə bilməz. Bu baxımdan, yaxın keçmişimizin bu günlərində baş verən, nədənsə, indiyə kimi haqqında söz açılmayan bəzi ciddi məqamlara toxunmaq istərdim. Söhbət 1992-ci ilin 20-25 dekabr günlərində keçirilməli olan, lakin keçirilməyən Xankəndi əməliyyatından gedir. Öncə deyim ki, həmin dövrdə ölkəni "idarə edən" AXC-Müsavat hakimiyyətinin səriştəsizliyindən və bacarıqsızlığından tez-tez danışılır. Amma sizlərə haqqında söhbət açacağım olayı diqqətlə oxusanız, burda səriştəsizlikdən deyil, birbaşa milli xəyanətdən söhbət getdiyini hər kəs anlayacaq. 1992-ci ilin sentyabrına qədər Azərbaycanın könüllü müdafiə dəstələri ard-arda qələbələr qazanır, günbəgün Xankəndinə yaxınlaşırdı. Sentyabrda Ağdamın Abdal-Gülablı kimi mühüm strateji əhəmiyyətli yaşayış məntəqəsinin xəyanətlə ermənilərə ərməğan edilməsi (Baxmayaraq ki, hazırlanan xəyanət planı ilə bağlı əvvəlcədən əldə elədiyim məlumat haqqında o zamankı müdafiə naziri postunu ələ keçirmiş Rəhim Qazıyevə, dövlət katibinin kabinetində əyləşən Pənah Hüseynova və xarici qüvvələrin dəstəyi ilə Ali Sovetin sədri seçdirilmiş, əslində isə xaricdən aldığı tapşırıqlarla ölkəni faktiki idarə edən İsa Qənbərə əvvəlcədən şəxsən məlumat vermişdim), bir müddət sonra Xoramord kəndi kimi mühüm sraateji əhəmiyyətli yüksəkliyi ələ keçirən Yaqub Rzayevi (Qatır Məmməd kimi tanınan hünərvər) Bakıya, texnika vermək adı ilə çağırıb, həbs etdilər və özlərinin Mamed adlı adamlarını onun yerinə təyin edib, dərhal Xoramordu təhvil verdilər. Hazırlanan bu planlardan sonra dekabr ayının 21-də Xankəndi əməliyyatını keçirmək planlaşdırıldı. Plana əsasən, dekabrın 23-də bütün istiqamətlərdən irimiqyaslı hücumla Xankəndinə daxil olmaq və qələbə bayrağını burda dalğalandırmaq nəzərdə tutulmuşdu. Lakin... Məsələ, məhz bu lakindədi. Görüntü xatirinə əməliyyat planlaşdırılsa da, icra olunmadı. Dekabrın 20-də Ağdamın Əfətli kəndindəki hərbi hissədə S.Hüseynovun rəhbərliyi ilə müşavirə keçirilməli idi. S. Hüseynov həmin müşavirənin yerini dəyişib, Qaradağlıda keçirdi. Müşavirə başlandıqdan bir neçə dəqiqə sonra Əfətlidəki hərbi hissəyə iri kütləli bomba atıldı. Bombanın helikopterdən atıldığını çox sayda insanlar görmüş olsalar da, bu fakta əhəmiyyət verilmədi. Şayiə buraxdılar ki, guya Ağdamda kimlərsə, məhz S.Hüseynovu aradan götürmək istəyirmiş. O zaman başqa bir şayiə də yayılmışdı: S.Hüseynovu aradan götürmək planı paytaxtda hazırlanmış və icrası da P.Hüseynova tapşırılıbmış... Sonra müşavirə Tərtərdə, icra hakimiyyətinin qonaq evində davam etmiş, o zamankı dövlət müşaviri Arif Hacılının da iştirak etdiyi həmin müşavirədə Sərdar Həmidov S.Hüseynova əl qaldırmış və müşavirə yarımçıq qalmışdı. Nəticədə, dekabrın 21-də podpolkovnik Mehman Səlimovun başçılıq etdiyi Daxili Qoşunlardan ibarət 386 nəfərlik qüvvə ən mühüm strateji əhəmiyyətli Daşbaşı yüksəkliyini ələ keçirsə də, ardınca əməliyyatı davam etdirməli olan hava hücumu, artilleriya və hərbi texnika hərəkətə keçmədi və bundan istifadə edən erməni tərəfi Daşbaşıda möhkəmlənən qüvvəmizi asanlıqla mühasirəyə alıb, son nəfərinə qədər şəhid etdi. Əməliyyatda əsas qüvvələrdən olan Alik Muradovun (Qazaxlı Alik) alayına qarşı da (Həmin alay Laçın dağlarının ətəyində idi və Xankəndinə hücum başlanan kimi Laçına daxil olmalı idi) təxribat törədilməsi hazırlanmış və məhz Alikin fədakarlığı nəticəsində, bu təxribat zərərsizləşdirilmişdi. Bu hadisə birinci Qarabağ savaşında ermənilərin xeyrinə dönüş nöqtəsi oldu. Buna qədər irəliləyərək Xankəndinin ətəyinə qədər gəlib çıxmış Azərbaycanın qeyrətli oğulları, məhz bundan sonra alınmış əraziləri yenidən ermənilərə təhvil verərək, geri çəkilməyə məcbur oldular. Nəticə isə hər kəsə məlumdur... Mən həmin hadisəni olduğu kimi nəql etdim. Nağıl deyildi, gerçək həqiqət idi. Ən azı, minlərlə bu faktın gerçəkliyini təstiq edən şahidlər var. Bu gerçəkliyi nəql etdim və heç bir münasibət ortaya qoymadım. Oxucum özü indiyə kimi üzərinə gedilməyən, müzakirə olunmayan bu fakta qiymət versin. Bu, sadəcə, təcrübəsizlik idi, yoxsa birbaşa xəyanət? Cavabını oxucuların ixtiyarına verirəm...

# İctimai birliklər və məcburi köçkünlərin sosial durumu

*Azərbaycan Məcburi Köçkünlərlə İş Şəbəkəsi Gürcüstan təcrübəsini öyrənib*

## Səfər çərçivəsində Gürcüstanın dövlət və qeyri-hökumət təşkilatları ilə də görüş keçirilib

Azərbaycan Məcburi Köçkünlərlə İş Şəbəkəsinin üzvləri Gürcüstanda fəaliyyət göstərən "Sinergiya" Məcburi Köçkünlər Şəbəkəsi ilə birgə təşkil etdikləri konfransa qatılıblar. Humanitar Tədqiqatlar Cəmiyyəti mətbuat xidmətindən "FaktXəbər"ə verilən məlumata görə, davam edən səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Gürcüstanda məcburi köçkünlərlə bağlı aparılan işlərlə tanış olublar. Səfərin ilk günü Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri ilə Gürcüstan vətəndaş cəmiyyəti nümayəndələri arasında məcburi köçkünlərin problemlərinə həsr olunan müzakirələr aparılıb. Gürcüstan tərəfi son illərdə məcburi köçkünlərin yeni yaşayış yerləri ilə təmin olunması zamanı dövlətin qarşısında duran problemlərə toxunub. Məcburi köçkünlər indiyə kimi Gürcüstan Respublikasının ərazisində 400 ictimai binada məskunlaşıblar. Onların əksəriyyəti, xüsusən, sərhəd bölgəsinə yaxın rayonlarda yerləşən binalar, artıq yararsız hala düşüb və həyat üçün təhlükəli vəziyyətdədir. Bildirilib ki, 270 min məcburi köçkün və yaxud 90 min ailənin olduğu respublikada normal şəraiti olan kollektiv məskunlaşma mərkəzlərinin salınması istiqamətində işlər aparılır. Gürcüstanda məcburi köçkünləri yeni evlərə köçürülən zaman həmin evlər onların mülkiyyətinə verilir və onlar isə, həmin mülkiyyətlə banklardan kreditlərin alınması zamanı girovu kimi istifadə edə bilərlər. Azərbaycan nümayəndə heyəti isə, son illərdə, məcburi köçkünlərin yerləşdirilməsi ilə bağlı ölkəmizdə həyata keçirilən işlərlə bağlı gürcüstanlı həmkarlarını məlumatlandırıb. Bu istiqamətdə dövlət və beynəlxalq təşkilatlar tərəfindən görülən işlər barədə məlumat verilib. Bildirilib ki, ölkəmizdə çadır şəhərcikləri tamamilə ləğv edilib və məcburi köçkünlər yeni tikilən qəsəbələrdəki fərdi mənzillərə və hündürmərtəbəli yaşayış binalarına yerləşdirilib. Amma müasir standartlara uyğun tikilən mənzillər məcburi köçkünlərin mülkiyyəti sayılmır. Məcburi köçkünlərin cəmiyyətə inteqrasiyası ilə bağlı da problemlər qalmaqdadır. Gürcüstanın Reinteqrasiya Məsələləri üzrə dövlət naziri Paata Zakareişvili ilə görüşdə isə, Azərbaycan nümayəndə heyəti məcburi köçkünlərin cəmiyyətə inteqrasiya olunması ilə bağlı dövlətin gördüyü işlərlə bağlı fikir mübadiləsi aparıb. Şəbəkə üzvləri, həmçinin, Gürcüstanın İşğal Olunmuş Ərazilərindən Qaçqın Düşən Şəxslərlə İş üzrə Naziri David Daraxvelidze ilə görüşüb. Azərbaycan hökumətinin Gürcüstan Respublikasına göstərdiyi dəstəyi xüsusi qeyd edən David Daraxvelidze məcburi köçkünlərin yerləşdirilməsi ilə bağlı Azərbaycan tərəfinin əhəmiyyətli təcrübəsi olduğunu vurğulayıb. Humanitar Tədqiqatlar Cəmiyyətinin direktoru Əvəz Həsənov isə, nazirə xoş sözlərə görə minnətdarlığını bildirib və Azərbaycanda məcburi köçkünlərin inteqrasiyası ilə bağlı mövcud olan problemləri qeyd edib.

Daha sonra nümayəndə heyəti Kutaisi, Zuqdidi, Tsxaltuba şəhərlərində məcburi köçkünlərin məskunlaşdıqları qəsəbələrə baş çəkdilər və yeni inşa olunan binalarda əhalinin yaşayışı ilə tanış oldular. Eyni zamanda, istirahət düşərgələri və məktəblərdə məskunlaşan məcburi köçkünlərin problemləri ilə tanış olub, yerli icma nümayəndələri ilə görüşüblər. Qeyd edək ki, səfər Avropa İttifaqının dəstəklədiyi "Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Avropa əməkdaşlığı" layihəsinin ikinci fazasının kompanenti kimi İngiltərənin Barışıq Resursları Təşkilatının ayırdığı maliyyə əsasında Humanitar Tədqiqatlar Cəmiyyətinin "Azərbaycanda Məcburi Köçkünlərə diqqətin yönəlməsi" layihəsinin çərçivəsində reallşıb. Humanitar Tədqiqatlar Cəmiyyəti 1997-ci ildə yaradılmış qeyri-hökumət təşkilatıdır. Təşkilat Azərbaycanda və dünyada fəaliyyət göstərən 10-a yaxın beynəlxalq koalisiyaların üzvüdür. Humanitar Tədqiqatlar Cəmiyyəti yeni salınmış qəsəbələrə məcburi köçkünlərin yerləşdirilməsi, onların şəraiti və inteqrasiyası ilə məşğul idi. Hökumət yeni qəsəbələrdə infrastrukturu kifayət qədər bərpa edib və insanları da müəyyən kriteriyalarla oraya köçürə bilib. Dövlətin tam dəqiq statistikası olmasa da, təxminən, 200 minə yaxın qeyd olunur. İndiyədək 17 rayonda 70-dək qəsəbə salınıb və yeni qəsəbələrin əksəriyyəti sərhəd bölgələrdə tikilib. Yerləşdirilməyənlərin 250 min nəfərə yaxını öz şəxsi mənzillərində, qohum evlərində və ya hökumətin verdiyi mənzillərlə qane olmayaraq, özlərinə şəxsi ev tikən insanlardır. Onların böyük əksəriyyəti Bakı və Sumqayıt şəhərlərində yaşayır. Haradasa 400 min insan üçün mənzil tikməyə dövlət hazır olmalıdır. Məncə, evlərin tikilməsi o qədər də baha başa gəlmir. Yeni tikilən qəsəbələrdə birmərtəbəli evlərin qiyməti 7-8 min manatdan 30 min manatadəkdir. Bununla yanaşı, hökumət məcburi köçkünlər köçürülənədək yaşadıqları evləri firmalara da sata bilər. Məcburi köçkünlər şəhərlərdə daha çox yaşayanda onlar inteqrasiya olunmuş sayılır. Onlar öz doğma evləri barədə, ola bilsin, o qədər də yaxşı düşünə bilmirdilər. Həmin köçkünlər indi sərhədə yaxın ərazilərə köçürülüb, orada artıq izolyasiya olunmuş durumdadırlar. Onların böyük əkəriyyəti öz torpaqlarına qayıtmaq fikrindədir. Çünki onların əvvəl yaşadıqları ərazilər daha konfortludur. Azərbaycanda 2003-ci ildən bu yana beynəlxalq təşkilatların humanitar yardım və ya humanitar proqramları başa çatıb. Azərbaycan inkişaf proqramına qədəm qoyub.

Humanitar Tədqiqatlar Cəmiyyəti Bakı şəhərində Acıq Cəmiyyət İnstitutu - Yardım Fondu (Azərbaycan) maliyyə dəstəyi ilə icra etdiyi "HTC-nin institutsional dəstəyi" layihəsi çərçivəsində növbəti tədbirini keçirdi. Təşkilatın Bakı, Gəncə və Bərdə şəhərlərindən olan fəalları və partnyorları üçün HTC-nin insan hüquqları və münaqişələrin aradan qaldırılması sahəsində apardığı iş, həyata keçirdiyi layihələr və proqramlar barəsində məlumat verilmişdir. Azərbaycanda insan hüquqlarının müdafiəsi istiqamətində vətəndaş cəmiyyəti səviyyəsində səylərinin zəifdiyi qeyd olunmuş və ictimai fəaliyyətlə məşğul olan insanlarla, xüsusən, regionlarda hüquqların qorunması üçün dəstək olan vərdişlərin azaldığı vurğulanmışdır. Tədbir zamanı layihənin əsas komponentlərindən biri olan təşkilatın, fondun dəstəyi ilə, yenilənən internet ünvanının inkişaf etdirilməsi və onun regionlardan insan hüquqları ilə bağlı məlumatlarla təmin olunmasına yönələn təkliflər müzakirə olunmuşdur. Təşkilatın fəalları və partnyorlarına sosial şəbəkələr və internet yayım xidmətlərinin imkanlarından istifadə edərək, məlumatı operativ çatdırmaq yolları barədə təlim keçirilmişdir. HTC-nin icra etdiyi layihə çərçivəsində birinci bu tip tədbir 2009-cu ilin oktyabr ayında Gəncə şəhərində ətraf rayonlardan olan hüquq və müdafiə təşkilatları fəallarını cəlb etməklə keçirilmişdi. HTC direktoru Əvəz Həsənov qeyd etmişdir ki, "aprel ayında nəzərdə tutulan növbəti tədbir zamanı, regionlarda insan hüquqlarının qorunması işini gücləndirmək məqsədilə təkliflər sənədi təqdim olunacaq və təşkilatların potensialının artırılmasına yönələn tövsiyələr hazırlanacaqdır".

Qeyd edək ki, Azərbaycanda qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması üzrə tədbirlərin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikası Dövlət Neft Fondundan (ARDNF), ümumilikdə, 2 322,4 mln. manat (31.03.2019 tarixinə) vəsait ayrılıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində, öz doğma yurdlarından didərgin düşmüş qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlərin həyata keçirilməsinə ARDNF 2001-ci ildən başlayaraq vəsait ayırır. Bu dövr ərzində, Dövlət Neft Fondunun vəsaiti hesabına Ağdam, Füzuli, Biləsuvar, Goranboy, Sabirabad, Ağcabədi, Beyləqan, Qəbələ, Şəmkir, Ağstafa, İsmayıllı, İmişli, Göygöl, Bərdə, Oğuz, Şəki, Gədəbəy, Saatlı, Hacıqabul, Balakən, Qazax, Zaqatala, Tərtər rayonlarında, Naxçıvan Muxtar Respublikasında, Bakı, Gəncə, Mingəçevir, Sumqayıt, Yevlax, Şirvan şəhərlərində, Bakının Abşeron rayonu, habelə, Mehdiabad, Ramana, Müşviqabad, Masazır, Pirşağı, Fatmayı və Ümid qəsəbələri ərazisində qaçqın və məcburi köçkünlər üçün hündürmərtəbəli binaların, fərdi yaşayış evlərinin, sosial-mədəni, infrastruktur və digər obyektlərin tikintisi həyata keçirilib. Qeyd olunan tədbirlərin maliyyələşdirilməsi üçün ayrılan vəsaitlər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, habelə, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən təqdim edilmiş və müvafiq qaydada əsaslandırılmış sifarişləri əsasında Dövlət Neft Fondu tərəfindən adıçəkilən qurumların dövlət xəzinədarlığındakı hesablarına köçürülür və sonra sifarişçi təşkilatlar tərəfindən podratçı təşkilatlara ödənilir.

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamların icrasına uyğun olaraq, 31.03.2019-cu il tarixinə 71 qəsəbə salınıb, 230 bina, 33781 evlər/mənzillər, 65 inzibati bina, 77 məktəb, 62 uşaq bağçası, 5 xəstəxana və 19 tibb məntəqəsi tikilib.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 26 dekabr





# Pirallahı rayonunda qanvermə aksiyası keçirildi

Pirallahı Rayon İcra Hakimiyyətinin və YAP Pirallahı rayon təşkilatının birgə təşkilatçılığı, 10 saylı Birləşmiş Şəhər Xəstəxanasının kollektivinin fəallığı ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin doğum günü münasibətilə qanvermə aksiyası keçirildi. Bu humanitar aksiyada rayon idarə, müəssisə və təşkilatlarının kollektivləri, ictimaiyyət nümayəndələri və fəal gənclər iştirak etdilər.



Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqları tərəfindən hər bir donorun sağlamlığı öncədən müəyyən olunub. Onlardan qan analizi götürülərək sağlam olub-olmamaları müəyyənləşdirilir. Belə ki, qanvermə aksiyasında 300-ə yaxın rayon sakini iştirak edərək talassemiyalı və hemofiliyalı xəstələrə yardım üçün könüllü olaraq qan verdi. Aksiyada yüksək fəallıqla iştirak edən donorlar qanvermənin xeyirxah və savab iş olduğunu bildirərək, bu aksiyalarda iştirak etmənin hər bir kəsin vətəndaşlıq borcu olduğunu bildirdilər.

# 11 ayda respublikada 1681 yol-nəqliyyat hadisəsi baş verib



Bu ilin 11 ayı ərzində respublika ərazisində 1681 yol-nəqliyyat hadisəsi baş verib. Bu barədə jurnalistlərə açıqlamasında Baş Dövlət Yol Polis İdarəsinin Yol-Patrul Xidməti şöbəsinin rəisi, polkovnik Kamran Əliyev deyib. O bildirib ki, qəzalar nəticəsində 738 nəfər həlak olub, 1535 nəfər isə xəsarət alıb. Bu qəzalardan 42,7 faizi piyadaların vurulması ilə bağlı olub ki, nəticədə 298 nəfər ölüb.

# YAP Nəsimi rayon təşkilatında Qarabağ müharibəsi əlilləri və şəhid ailələrilə görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının və Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi üzrə rayon ərazi ilk partiya təşkilatının təşkilatçılığı ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin nümayəndələri ilə görüş keçirilib.***





Görüşü giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı bildirib ki, rayon təşkilatında, eləcə də, rayon ərazi ilk partiya təşkilatlarında il ərzində əlamətdar tarixi günlərdə və bayramlarda şəhid ailələri və Qarabağ qaziləri ilə görüşlərin keçirilməsi, onların problem və qayğılarının öyrənilməsi və müvafiq dəstəyin verilməsi ənənəyə çevrilmişdir. Rayon təşkilatı sədri respublikamızın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canından keçən şəhidlərin, qazilərin və müharibə veteranlarının sosial müdafiəsi ilə bağlı dövlət siyasəti haqqında ətraflı məlumat verərək Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan nailiyyətlərə, son illərdə həyata keçirilən köklü islahatlara nəzər salıb.

Tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədrinin birinci müavini və rayon təşkilatı ərazi ilk təşkilatının sədri Anar Quliyev çıxış edərək, dövlətimizin hər bir Azərbaycan vətəndaşının sosial məsələlərinin həllinə xüsusi diqqətlə yanaşdığını və çox mühüm layihələrin həyata keçirildiyini bildirib. Tədbirdə iştirak edən şəhid ailələri və Qarabağ qaziləri çıxış edərək, dövlət tərəfindən hər zaman diqqət və qayğı ilə əhatə olunduqlarını bildiriblər. Xüsusilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkənin sosial problemlərinə, eləcə də, əhalinin həssas qruplarına Onun diqqətinin və qayğısının xalq tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıblar.

Tədbirin sonunda təşkilatçılar tərəfindən şəhid ailələri və Qarabağ qazilərinə bayram sovqatı paylanıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bayram günü bu marşrut xətləri üzrə avtobuslar sutka ərzində fəaliyyət göstərəcək

Dekabrın 31-dən yanvarın 1-nə keçən gecə 501, 502, 503, 525, 533, 553, 592, 596 saylı marşrut xətləri üzrə hər xəttə uyğun əlavə bir avtobus səhərə qədər sərnişinlərin xidmətində olacaq. Dövlət Avtomobil Nəqliyyatı Xidmətidən AZƏRTAC-a bildirilib ki, dekabrın 25-dən respublikanın 56 avtovağzal və avtostansiya kompleksində gücləndirilmiş iş rejimi elan edilib. Ötən il Yeni il bayramı ərəfəsində respublika üzrə 54 min 542 nəfər sərnişin daşınıb. Paytaxtdan regionlara səfər edənlərin daha çox olması səbəbindən ən çox sıxlıq Bakı Beynəlxalq Avtovağzal Kompleksində müşahidə olunub. Bu ildən gecə reysləri xətlərə əlavə olunduğu və 3 avtovağzaldan Cocuq Mərcanlı istiqamətində avtobuslar hərəkət etdiyi üçün bayram ərəfəsində sıxlığın daha çox olacağı ehtimalı var. Sərnişinlərə biletləri bir neçə gün öncədən kassalardan əldə etmələri tövsiyə edilir.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**